

## Ermənistanın Azərbaycanla sərhəddə hərbi qüvvələr toplamasının pərdəarxası...

*Oktyabrın 19-u saat 22:35-dən oktyabrın 20-si saat 00:25-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Günəşli, Yuxarı Şorca və Yuxarı Zağalı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Daşkəsən rayonunun Astaf və Kəlbəcər rayonunun Mollabayramlı yaşayış məntəqələri istiqamətlərində yerləşən...*

Səh.9


# UNİKAL

№39 (2124) 21 Oktyabr 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# Misir Mərdanov yeni vəzifə istəyir

## Sabiq nazir indi də AMEA prezidenti olmaq arzusundadır?

*Məlum olduğu kimi, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti postu bir müddətdir ki, boşdur. Son günlər sabiq təhsil naziri Misir Mərdanovun həmin vəzifəyə gəlmək istədiyinə dair iddialar yayılıb. Xəbər verildiyi kimi bir müddət əvvəl AMEA prezidenti Ramiz Mehdiyev tutduğu vəzifədən istefa verib. İndiyədək AMEA prezidentliyinə namizədlər arasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru, biologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü Urxan Ələkbərov və AMEA-nın vitse-prezidenti, İnformasiya...*

Səh.8

Səh.3

# Liderlər Qarabağdan növbəti birlik mesajı verdilər



## "Azərbaycan Ermənistan üçün sonuncu xəbərdarlığını edib"



*Milli Məclisin deputatı Elman Nəsirov "Unikal"a müsahibə verib. Deputat Ermənistanın sərhədə qoşun yığmasının səbəblərindən, Ermənistan-Azərbaycan sülh müqaviləsinin nə zaman imzalana biləcəyindən, Zəngilan aeroportunun strateji əhəmiyyətindən və digər məsələlərdən danışıb.*

Səh.4

## "Aqroparklarda ərzaqlıq buğda istehsalı 61 % artıb" - Mikayıl Cabbarov



*İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan aqroparklarda bu il ərzaqlıq buğda istehsalı ötən illə müqayisədə, təxminən, 61 % artaraq 88,8 min tona çatıb. "Unikal" xəbər verir ki, bunu nazir Mikayıl Cabbarov tviterdə bildirib. "Aqroparklarda ərzaqlıq buğdanın istehsalında müsbət...*

Səh.2

## Qarabağ iqtisadi zonasının sosial-iqtisadi inkişafı prioritetdir



*Regionların iqtisadi inkişafında Qarabağ iqtisadi zonasının inkişafı əsas yer tutur. Artıq Qarabağda müxtəlif sahələrin inkişafı üçün dövlət tərəfindən güzəştlərin tətbiq edilməsi də nəzərdə tutulur. Dünən Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) sədri Seymur...*

Səh.11

# "İstəsəydim çoxdan deputat olardım" - Tünzalə



***"Qətiyyən deputat olmaq fikrində və iddiasında deyiləm. Olsaydım, çoxdan deputat olardım".***

"Unikal" xəbər verir ki, bu fikri Xalq artisti Tünzalə Ağayeva səsləndirib. O, dörd il əvvəl müğənni Nura Surinin "Tünzalə özünü hamıdan üstün görür, deputat olmaq istəyir" açıqlamasına münasibət bildirib.

Onun sözlərinə görə, hər seçki öncəsi mənimlə bağlı bu mövzu gündəmə gəlir: "Savadlı olmaq mütləq ki, millət vəkili olmalısan, demək deyil. Savadsız olsaq, biz hara kimi gedə bilərik? Vətəni hər zaman sevmək lazımdır. Gedib hər hansısa bir postda oturanda Vətəni sevmək böyük yalançılıqdır. Hər zaman ictimai aktivliyim olub. Bəlkə də mən o impulsu göndərmişəm özümdən xəbərsiz. Çünki arqumentsiz danışmıram, analitik beynə sahibəm. Bəlkə də buna görə insanlar deyirlər ki, Tünzalə çox danışır. Yadıma gəlmir ki, hansısa bir mövzu haqda boş danışım. Deputat olmaq istəyimlə bağlı xəbərləri eşidəndə səmimi etiraf edim ki, qıcıqlanıb, əsəbiləşirdim". (Bizim.media)

# Könül Xasıyevaya 254 min lazımdır



***"Əziz və dəyərli xalqımız, elimiz-obamız, uzaqda, yaxında yaşayan soydaşlarımız. Sənətə gəldiyim ilk gündən, hər zaman ləyaqətlə yaşamağa çalışdım. Öncə ləyaqət, sonra sənət dedim.***

Kimsənin qəlbini qırmadım. Var-dövlət arxasınca qaçmadım. Sadə doğuldum, sadə yaşadım. Ən əsası sizi sevərək, sevginizlə yaşadım. 22 ildir hər gecə ölümlə çarpışdım, səhər yenə qalxmağa, dik durmağa çalışdım. Tək bir səbəbim vardı. Narahat və yeganə övladım Kazımın toyunu görmək! Amma boğazımda yaranan bəd xassəli şiş bütün ümidlərimi qırdı. Elə bilirəm dünya uçub altında qalmışam. Amma bir ümid var ki, hələ metastaz (yayılmayıb) verməyib. Vaxtında əməliyyat olunsam, yaşama şansım var".

Bu sözləri Xalq artisti Könül Xasıyeva sosial şəbəkədə yazıb. Azərbaycanlılara səslənən sənətçi əməliyyat üçün maddi yardıma ehtiyacının olduğunu bildirib:

"Almaniyada olacaq əməliyyat üçün 150.000 dollar (254 min manat) vəsait lazımdır. Ümidim sizədir, məni dualarında yaşadan əziz xalqımız! İnanıram ki, Azərbaycan musiqisini "Gecələr"siz, Kazımı da körpə canı ilə mənsiz, tək qoymayacaqsınız. Buna o qədər inanıram ki... Vəsait yığılıb, sağ-salamat qayıtsam, Allahın izni ilə 2 gün Heydər Əliyev sarayında və daha sonra bölgələrimizdə pulsuz, açıq konsertlər verəcəm".



# Rəqsanə saytlara kiber hücum etdi

***Azərbaycanda bir çox xəbər saytlarının "Instagram" hesabları bağlanıb.***

"Unikal" xəbər verir ki, buna səbəb müğənni Rəqsanə İsmayılovanın kütləvi şəkildə səhifələri şikayət etməsidir.

O, bu barədə video yayaraq xəbər saytlarının "Instagram" hesablarına hücum etdiyini təsdiqləyib.

# "Atam baltayla üstümə gəlmişdi" - Zülfiyyə Xanbabayeva



***"Məşqlər zamanı biz klubda idik. Atam isə əlində balta ilə gəlib qapını sındırırdı. Əslində atam çox sakit insan olub. Onu anam öyrədirdi: get, qızın müğənni olmaq istəyir, məşqlərə gedir".***

Axşam.az xəbər verir ki, bu sözləri Xalq artisti Zülfiyyə Xanbabayeva "Söhbət var" proqramında deyib. Müğənni bildirib ki, valideynləri onun sənətə gəlməsinə qarşı çıxıb.

Verilişdə yer alan Əməkdar incəsənət xadimi Vaqif Gərayzadə "Atası balta ilə gəlmişdi. Dedim ki, elə zaman gələcək ki, Zülfiyyə Xanbabayeva məşhur müğənni, Xalq artisti olacaq və sizə konsertinə bilet verməyəcək" sözlərini əlavə edib.

Z.Xanbabayeva "Doğrudan da oldu. Valideynlərim bir konsert olanda deyirdilər ki, bizə və ya dost, tanışımıza bilet tap ver. Mən də cavab olaraq söyləyirdim ki, gedin bileti özünüz alın" cavabını verib.

# "Təklik çox pis şeydir" - Mətanət Əsədova



***Müğənni Mətanət Əsədova "Həmin Zaur" verilişində qonaq olub.***

"Unikal" olay-a istinadən yazır ki, sənətçi "Tənhalıq sənə nəyi öyrətdi" sualına belə cavab verib: "Təklik məni daha da cəsarətli, qüvvətli etdi. Düzdür, ürəyimi parça-parça, qübar elədi. Heç kimə arzu etmirəm. Təklik çox pis şeydir".

Yığımcıl olmamağı barədə söz açan ifaçı "Ömrüboyu kənarda 1 manatım olmayıb. Pulu evə gətirə bilmirəm", - deyə, bildirib.

# Mina hələ boşana bilmir



***Müğənni Mina Hüseyn boşanma prosesindən danışıb.***

Sənətçi "Deməsəm olmaz" verilişinə telefonla bağlanıb. O bildirib ki, boşanma prosesləri uzanır: "Yeni qanunlar var, psixoloqa getməliyik. Onun rəyindən sonra boşanma olacaq. Barışıq haqda düşünmürəm. Barışılacaq heç nə yoxdur, tam bitdi".

Qeyd edək ki, Mina Sərxan adlı bəylə ailə qurub. Onlar bir neçə ay sonra ayrıldıqlarını açıqlayıblar.



# XİN-dən ATƏT-in missiyası barədə etiraz bəyanatı

***"ATƏT Sədrliyinin və Katibliyin bu cür məsləhətsiz birtərəfli hərəkəti etimad quruculuğunun əsas prinsiplərinə ziddir".***

"Unikal" xəbər verir ki, bu, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti idarəsinin "ATƏT-in ehtiyacların qiymətləndirilməsi missiyası" adlandırılan qrupun Ermənistana göndərilməsi məsələsi ilə bağlı şərhində yer alıb.

XİN-dən daxil olan açıqlamada deyilir ki, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Katibliyinin "ATƏT-in ehtiyacların qiymətləndirilməsi missiyası" adlandırılan qrupun Ermənistana göndərilməsi ilə bağlı qeyd edək ki, belə bir missiya məsələsi ATƏT-in hər hansı bir kollektiv qərar verici orqanı tərəfindən heç zaman müzakirə olunmayıb və nəticədə bu barədə heç bir qərar qəbul edilməyib. Bununla da, "ATƏT-in Ermənistana ehtiyacların qiymətləndirilməsi missiyası" adlandırılan hər hansı bir qrup ATƏT mandatına malik deyil, ATƏT-lə heç bir şəkildə əlaqələndirilə bilməz, onun heç bir nəticəsi və ya hesabatı ATƏT sənədi kimi qəbul edilməyəcək:

"Ermənistanın irəli sürdüyü bu birtərəfli təşəbbüs bir neçə iştirakçı dövlətdən olan bir qrupun şəxsi səfərindən başqa bir şey deyil və belə bir səfərin istənilən nəticəsi müvafiq olaraq qiymətləndiriləcək.

30 ilə yaxın bir müddətdə Azərbaycana qarşı hərbi təcavüzün dayandırılması və onun ağır nəticələrinin aradan qaldırılması istiqamətində səylərin, eləcə də hətta keçmiş Ermənistan-Azərbaycan münaqişəsinə aid olmayan məsələlər ilə bağlı missiyaların ATƏT tərəfindən bir qayda olaraq konsensusa istinadla qarşısının alınması kontekstində bu addım ciddi sual doğurur.

Fakt budur ki, ATƏT-in 2005 və 2010-cu illərdə Azərbaycanın o zaman işğal altında olan ərazilərinə iki missiyasının Ermənistanın aşkar destruktiv mövqeyinə görə ATƏT çərçivəsində konsensusla razılaşdırılması illər çəkmişdi. Azərbaycanın işğal olunmuş ərazilərində saysız-hesabsız qeyri-qanuni fəaliyyət, o cümlədən bu ərazilərdə qanunsuz məskunlaşma faktları nəzərə alınaraq, 2020-ci ilə qədər Azərbaycanın növbəti belə missiyası ilə bağlı müraciəti yenə də Ermənistanın müqaviməti nəticəsində baş tutmayıb.

ATƏT Sədrliyinin və Katibliyin bu cür məsləhətsiz birtərəfli hərəkəti, digər məsələlərlə yanaşı, tərəflərin razılığını, vasitəçilərin qərəzsizliyini və dövlətlərin beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə riayət olunmasını tələb edən hər hansı məsuliyyətli və etibarlı vasitəçiliyin və etimad quruculuğunun əsas prinsiplərinə ziddir".

# Misir Mərdanov yeni vəzifə istəyir

## Sabiq nazir indi də AMEA prezidenti olmaq arzusundadır?

***Məlum olduğu kimi, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti postu bir müddətdir ki, boşdur. Son günlər sabiq təhsil naziri Misir Mərdanovun həmin vəzifəyə gəlmək istədiyinə dair iddialar yayılıb.***

Xəbər verildiyi kimi bir müddət əvvəl AMEA prezidenti Ramiz Mehdiyev tutduğu vəzifədən istefa verib.

İndiyədək AMEA prezidentliyinə namizədlər arasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru, biologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü Urxan Ələkbərov və AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyevin adları çəkilirdi.

Hazırda Akademiyanın Riyaziyyat İnstitutuna rəhbərlik edən Misir Mərdanovun da bu istəkdə olduğuna dair söz-söhbətlər dolaşır. Əslində oxşar iddialar bir neçə ay öncə də gündəmə gəlmişdi. Həmin vaxt Mərdanovun bu barədə medianın sualına cavabı belə olmuşdu: "AMEA-nın prezidenti ictimaiyyət deyil, AMEA-nın ümumi yığıncağında akademiyanın həqiqi üzvləri seçir".

"Özünüzü AMEA prezidenti kimi görürsünüzmü?" sualını isə eks-nazir cavabsız qoymuşdu.

Son günlər Akademiyanın rəhbəri postuna ən çox həvəsli görünən şəxsin məhz Mərdanov olduğu barədə iddialar güclənib. Lakin onun akademiyanın müxbir üzvü olması səbəbindən bu istəyin reallaşması az ehtimal edilir. Üstəlik, Mərdanovun təhsil naziri postundakı fəaliyyət dövrü unudulmayıb, həmin dövr daha çox neqativ məqamlarla müşayiət edildiyindən AMEA prezidentliyinə seçkilərdə keçmiş nazirə etimad göstərilməsi ağlabatan sayılmır.

Ötən ay AMEA-nın yeni prezidentinin nə vaxt seçiləcəyi ilə bağlı danışarkən qurumun prezidenti vəzifəsini icra edən akademik Arif Həşimov bildirmişdi ki, AMEA-nın yeni Nizamnaməsi aidiyyəti dövlət qurumları ilə birgə işlənib hazırlanır və ümumi yığıncaqda müzakirə olunacaq.Təkliflər əsasında daha da təkmilləşdiriləcək.

Onun sözlərinə görə, lakin hazırda AMEA-nın ümumi yığıncağının nə vaxt keçiriləcəyi bəlli deyil.

Həşimov bildirmişdi ki, AMEA-nın prezidentinin seçilməsi məsələsi yeni Nizamnamədə əvvəlki ilə eyni cür əksini tapıb: "Müəyyən dəyişikliklərlə bağlı təkliflər var. Bu da nəzərə alınacaq. AMEA-nın prezidenti əvvəl olduğu kimi yenə də ümumi yığıncaqda seçiləcək. Ümumi yığıncağın səlahiyyətləri öz yerində qalır".

Arif Həşimov qeyd etmişdi ki, AMEA-nın yeni Nizamnaməsi Nazirlər Kabinetinə təqdim edilib: "Burada əməkdaşların sayı, yeni struktur və digər məsələlər öz əskini tapıb. Təsdiq edildikdən sonra ətraflı məlumat veriləcək. Yeni Nizamnamədə AMEA-nın hüquqi statusu da öz əksini tapıb".

AMEA-nın Elm və Təhsil Nazirliyinin tabeliyinə verilən İnstitutlarına gəldikdə isə akademik qeyd edib ki, bu proses ilin sonuna kimi yekunlaşacaq: "Nəzərə alaq ki, əməkdaşlar məzuniyyətdən qayıtdıqdan sonra işlər daha da sürətlənib. Əsas fəaliyyət sentyabrdan başlayıb".

Əldə etdiyimiz məlumata görə,



AMEA-nın yeni prezidentinin müəyyənləşməsi bu ilin sonu, gələn ilin əvvəllərindən tez baş verməyəcək. Quruma indiyədək olan prezidentlərlə müqayisədə nisbətən gənc, lakin elmi və idarəçilik təcrübəsi yüksək olan alimlərdən birinin rəhbər gətirilməsi ehtimalı isə kifayət qədər yüksək qiymətləndirilir. Məhz bu baxımdan da yanaşdıqda Misir Mərdanovun AMEA rəhbəri seçilməsi qeyri-mümkün görünür.

Xatırladaq ki, bir müddət əvvəl "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərman imzalanmış, Təhsil Nazirliyinin adı dəyişdirilərək Elm və Təhsil Nazirliyi adlandırılmışdı. Bundan başqa, fərmana əsasən, elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər Elm və Təhsil Nazirliyinə həvalə edilmişdi.

Sözügedən qərarla bağlı ilk reaksiyalardan biri isə sabiq təhsil naziri, fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanovdan gəlmişdi. O, yerli mətbuata açıqlamasında yeni nazirliyin alimlərə elm və tədqiqatlarla məşğul olmaq üçün lazımi şərait yaratmalı olduğunu demişdi.

Mərdanovun açıqlamasındakı ən diqqətçəkən məqam isə bu idi: "Nazirliyin tərkibində iki agentlik yaradılıb. Biri elmlə bağlı, digəri isə məktəbəqədər və orta təhsillə bağlıdır. Hər halda elmlə bağlı agentliyə elmdən başı çıxan, müəyyən səviyyəyə çatmış şəxsin rəhbərlik etməsi daha məqsədəuyğundur".

Həmin vaxt bildirilirdi ki, Misir müəllim "elmlə bağlı agentlik" deyərkən Elm və Ali Təhsil üzrə Dövlət Agentliyini nəzərdə tutur. Onun "elmdən başı çıxan, müəyyən səviyyəyə çatmış şəxs" dedikdə konkret olaraq kimi nəzərdə tutduğu isə həmin vaxt qaranlıq qalmışdı. Bir çoxlarının ozamankı qənaətinə görə, sabiq nazir adıçəkilən Dövlət Agentliyinin rəhbəri postuna sətiraltı olaraq özünün namizədliyini təklif edir...

Qısası, son vaxtlar Mərdanovun yeni vəzifə arzusu mütəmadi olaraq medianın gündəminə gəlir. Həmin arzunun gerçəkləşəcəyinə inam az olsa da, hər şeyi zaman göstərəcək.

***Sənan Mirzə***

# Ermənistanın Azərbaycanla sərhəddə hərbi qüvvələr toplamasının pərdəarxası...

## İrəvanı sülhə deyil, Azərbaycanla münaqişəyə cəlb edib, yeni geosiyasi şərtlər əldə etmək istəyirlər

***Oktyabrın 19-u saat 22:35-dən oktyabrın 20-si saat 00:25-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Günəşli, Yuxarı Şorca və Yuxarı Zağalı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Daşkəsən rayonunun Astaf və Kəlbəcər rayonunun Mollabayramlı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı silahlardan fasilələrlə atəşə tutub.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Azərbaycan Ordusunun qeyd olunan istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

Bununla yanaşı, Ermənistan Müdafiə Nazirliyi Azərbaycanla sərhədə əlavə hərbçilər cəlb edir. Belə ki, sosial şəbəkələrin erməni seqmentində bununla bağlı görüntülər yayılıb. Şəxsi heyəti daşıyan hərbi maşınların sərhədə doğru hərəkət etdiyi ehtimal olunur.

Müdafiə Nazirliyinin daha öncə yaydığı məlumata görə, oktyabrın 16-sı günün ikinci yarısında Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun Daşkəsən istiqamətində yerləşən bölmələri ilə üzbəüz mövqelərə hərbi nəqliyyat vasitələri ilə əlavə şəxsi heyət və 4 ədəd artilleriya qurğusu cəmləşdirib.

Hərbi ekspert Ədalət Verdiyev "Unikal"a açıqlamasında deyib ki, Ermənistan ordusunun Azərbaycanla təyin edilməmiş sərhəd istiqamətində şəxsi heyət və ağır silahlar cəmləşdirməsi onlar ( Ermənistan rəhbərliyi - red.) üçün çox ağrılı-acılı bir nəticələrə gətirib çıxaracaq. Onun sözlərinə görə, Vətən müharibəsindən və ondan sonrakı dövrdə baş verən hadisələr hələ də Ermənistan hərbi-siyasi rəhbərliyi üçün doğru-dürüst dərs olmayıb. "Ermənistan qoşunlarının sərhəddə cəmləşdirilməsi Azərbaycan vətəndaşlarının və ordumuzun şəxsi heyəti üçün təhlükə və təhdidlər yaradır. Və bu təhlükələrin, təhdidlərin aradan qaldırılması bizim təhlükəsizlik qüvvələrimizin bir nömrəli vəzifəsidir. Odur ki, qoşunlarımız düşmənin cəmləşdiyi ərazilərdən bizə qarşı təhdid törətmək üçün kəşfiyyat əlamətləri məlum olduqdan sonra həmin bölmələri, atəş açan vasitələri məhv etməli və Azərbaycan Ordusunun şəxsi heyəti ön mövqelərdə yerləşdirilməlidir".

MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə "Unikal"a açıqlamasında deyib ki, Ermənistan Azərbaycanla sərhəddə artilleriya, piyada döyüş maşınları və şəxsi heyəti durmadan artırır. Onun fikrincə, müharibənin bitməsindən iki il keçməsinə və imzalanan razılaşmalara baxmayaraq Yerevan sülh müqaviləsinin bağlanmasında və razılaşmaların yerinə yetirilməsində maraqlı deyil: "Nikol Paşinyan artıq Avropa İttifaqının mülki müşahidə missiyasının ölkəsinə gətirilməsinə nail oldu. Ermənistan Rusiya əlaqələrini zəiflətmək də Azərbaycan üçün müəyyən qədər müsbət perspektivi yoxdur. Ermənistan Baş naziri imzalanan sənədlərlə vaxt qazanaraq Hindistandan və Sloveniyadan yeni silahlar tədarükü istiqamətində işlər aparır. Bu, onu göstərir ki, yaxın perspektivdə Ermənistan yenidən təxribatlara əl atacaq. Ermənistanın əsas planı Azərbaycanın möhkəmləndiyi ərazilərdən çıxarılmasıdır. Burada Ermənistan Avropa mülki müşahidə missiyasının arxasında gizlənəcək. Ermənistana vaxt tanımaq olmaz və mümkün qədər Qarabağda silahlı erməni birləşmələrinə və sərhəddə cəmləşən qüvvələrə zərbələr endirilməlidir. Ermənistanı sülhə deyil, Azərbaycanla münaqişəyə cəlb edib, yeni geosiyasi şərtlər əldə etmək istəyən Qərbin bir neçə dövləti var".

Politoloq bildirib ki, Ermənistan Zəngəzur dəhlizini açmır, öz ərazisindən praktiki Naxçıvana yol vermir. Qarabağdan silahlı qüvvələrini çıxarmır. "Necə bizim ərazi bütövlüyümüzü tanıyır ki, silahlı qüvvələri ərazilərimizdə qalmaqdadır. Ona görə də Ermənistanın siyasi davranışlarında sülh deyil, yeni müharibəyə hazırlaşmaq aydın şəkildə görünür. Onu da qeyd edim ki, N. Paşinyan V.Putinin üçtərəfli görüşündən imtina etdi. Göründüyü kimi Ermənistan yeni müharibəyə hazırlaşır" - deyə fikrini tamamlayıb.



Siyasi şərhçi Asif Nərimanlı da hesab edir ki, Ermənistanın Azərbaycanla sərhəddə artilleriya və canlı qüvvə cəmləməsi haqda məlumatlar fonunda Nikol Paşinyanın Bakını "yeni hərbi təcavüzlə" ittiham etməsi təsadüfi deyil: "Nikol iddia edir ki, Azərbaycan sərhəddə "atəşkəsi pozur" və bu, yeni hərbi hücum üçün bəhanədir. Əlavə edir ki, "atəşkəs rejimini saxlamaq və təhlükəsizliyi təmin etmək üçün beynəlxalq mexanizmlər lazımdır". 12-13 sentyabr toqquşmasından sonra siyasi müstəvidə baş verənlər -Qərbin, xüsusilə Fransanın bölgəyə müdaxilə imkanlarının genişlənməsi, sərhədə "mülki missiya"nın gəlişi qərarı və s. - İrəvanın hədəfinin sərhədə "beynəlxalq müşahidəçi" adı altında Qərb qüvvələrinin gətirilməsi, bununla sərhədin müəyyən edilməsi də daxil olmaqla bölgədəki vəziyyəti öz xeyrinə dəyişmək olduğunu təsdiqlədi. Praqda qərar qəbul edilsə də, Rusiyanın "mülki missiya"nın Ermənistan ərazisinə gəlişinə reaksiyası gözlənildiyi kimi sərt oldu və Putinin üçtərəfli formatda yeni görüş hazırlığı da deməyə əsas verir ki, Moskva təşəbbüsü yenidən ələ almağa çalışacaq. Ermənistanın Rusiyanın prosesə müdaxiləsinə qədər "beynəlxalq mexanizmlərin" yaradılmasını istəyir və erməni qoşunların sərhəddə cəmlənməsinə paralel olaraq, Paşinyanın Azərbaycanı "yeni təcavüzə hazırlaşmaqda" ittiham etməsi də İrəvanın növbəti hərbi kompaniyaya başlayacağı gözləntisini artırır. Təxribatların Moskvada mümkün görüşə qədər olacağı da istisna deyil".

***Z.Məmmədli***



# Vilayət Eyvazov baş müstəntiqi rəis təyin etdi

***Sumqayıt Şəhər Polis İdarəsinin 5-ci Polis Bölməsinə yeni rəis təyin edilib.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, bu barədə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb.

Əmrə əsasən, polis polkovnik-leytenantı Elmar Quliyev Sumqayıt ŞPİ-nin 5-ci PB-ə rəis təyin olunub.

Qeyd edək ki, E.Quliyev bu təyinatadək DİN-in Baş İstintaq və Təhqiqat İdarəsinin Ağır Cinayətlərin İstintaqı Şöbəsinin xüsusilə mühüm işlər üzrə baş müstəntiqi vəzifəsində çalışıb.

# Anar Kərimov Əlcəzair səfiri ilə görüşdü

***Nazir Anar Kərimov Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Abdeluahab Osmanla görüşüb.***

Mədəniyyət Nazirliyindən "Unikal"a verilən xəbərə görə, görüşdə iki ölkə arasında mədəniyyətin müxtəlif sahələrində əməkdaşlıq və gələcək perspektivlər müzakirə olunub.

Nazir Anar Kərimov əməkdaşlığın genişləndirilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsinin vacibliyini diqqətə çatdırıb. Noyabr ayında Bakıda keçiriləcək Nizami Gəncəvi Beynəlxalq Forumunun əhəmiyyəti haqqında səfirə məlumat verən nazir Əlcəzair nümayəndə heyətini bu tədbirdə iştiraka dəvət edib.

Nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən "Bakı Prosesi", 2011-ci ildən ənənəvi keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumu, eləcə də Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə keçirilən "Mədəniyyət naminə sülh" (Peace4Culture) beynəlxalq çağırışı çərçivəsində də qarşılıqlı uğurlu əməkdaşlığı bir daha vurğulayıb. A. Kərimov bildirib ki, çağırışın əsas məqsədi postmünaqişə dövründə olan ölkələrin işğaldan azad olunmuş ərazilərində mədəni infrastrukturu dirçəltmək, milli-mənəvi dəyərləri yenidən həmin torpaqlara qaytarmaq üçün davamlı sülhə töhfə verməkdən ibarətdir.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Abdeluahab Osman birgə əməkdaşlıqdan məmnunluğunu ifadə edib.

Görüş tərəfləri maraqlandıran məsələlərin müzakirəsi ilə davam edib.

# Türkiyə yeni əməliyyata başladı

***Türkiyə ordusu Diyarbakırda 1006 personalın iştirakı ilə "Eren Mühasirəsi Payız Qış-3" adlı Şəhid Jandarma Kapitanı Fuat Oğuzcan əməliyyatına başlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Daxili İşlər Nazirliyi tərəfindən açıqlama verilib. Diyarbakır Jandarma Region Komandanlığının koordinasiyasında 1006, əlavə olaraq Jandarma Komando Xüsusi Hərəkat, JÖH, Komando və Təhlükəsizlik Mühafizə qruplarından ibarət 61 əməliyyat qrupu da əməliyyata cəlb olunub.

Əməliyyatın ilk günü Diyarbakırın Ulucak və Yorulmaz məhəllələrində aparılan axtarış əsnasında 58 fərqli nöqtədə tonlarla kimyəvi maddə aşkar edilərək götürülüb.

***Ağarza Elçinoğlu***

# İlham Əliyev Ərdoğanla Cəbrayılda təməl qoydular



***Oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyasının təməlini qoyublar.***

"Unikal" xəbər verir ki, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev dövlət başçılarına Horadiz-Ağbənd dəmir yolu xətti və Qumlaq stansiyası barədə məlumat verib.

# Prezidentlər "Dost Aqropark" kompleksinin açılışında



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər.***

"Unikal" xəbər verir ki, dövlət başçılarına kompleks barədə məlumat verildi. Sonra konsert proqramı təqdim olundu.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə çıxış etdilər.

Sonra dövlət başçıları "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışını bildirən lenti kəsdilər.

# Hikmət Hacıyev Cəbrayıldan paylaşım etdi



***"Bu narahatedici mənzərəni vulkan püskürməsi nəticəsində dağılmış qədim Pompey xarabalıqları ilə səhv salmaq olar".***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tviter hesabında yazıb.

"Pompeydən fərqli olaraq, bu video Cəbrayıl şəhərində 30 illik işğal zamanı Ermənistan tərəfindən qəsdən törədilən insan vandalizmini əks etdirir", - Prezidentin köməkçisi bildirib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5[N]
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# Azərbaycandakı türk hərbçilərin mandatı daha bir il uzadılacaq

***Azərbaycanın işğaldan azad edilən ərazilərində müvəqqəti yerləşdirilmiş Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzindəki türk hərbçilərin mandatı daha bir il müddətinə uzadıla bilər.***

"Unikal" Türkiyə KİV-ə istinadən xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan türk hərbçilərinin Azərbaycanda qalma müddətinin uzadılması ilə bağlı TBMM-ə sənəd göndərib.

Sənəd yaxın günlərdə ölkə parlamentində müzakirəyə çıxarılacaq.

# "Aqroparklarda ərzaqlıq buğda istehsalı 61 % artıb" - Mikayıl Cabbarov

***İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan aqroparklarda bu il ərzaqlıq buğda istehsalı ötən illə müqayisədə, təxminən, 61 % artaraq 88,8 min tona çatıb.***

"Unikal" xəbər verir ki, bunu nazir Mikayıl Cabbarov tviterdə



bildirib. "Aqroparklarda ərzaqlıq buğdanın istehsalında müsbət dinamika müşahidə edilir. 2020-ci ildə aqroparkların taxıl sahələrində 35,2 min ton, 2021-ci ildə 56% çox olmaqla - 55 min ton ərzaqlıq buğda istehsal olunub", - o deyib.

# Liz Trass Baş nazir seçildikdən 45 gün sonra istefa verdi

***Britaniyanın Baş naziri Liz Trass istefa verib. Bu barədə "Sky News" məlumat yayıb.***

Qeyd edək ki, Trass cari ilin sentyabrın 6-da Mühafizəkarlar Partiyasının liderlik yarışmasında Rişi Sunakı məğlub edərək, Balmoral sarayında mərhum kraliça ilə görüşdükdən sonra Boris Consonun yerinə baş nazir olub. BBC-nin məlumatına görə, Baş nazir istefa verməsi ilə bağlı "10 Downing Street" qarşısında açıqlama verib. O, "hər şey bitdi", - deyə bildirib.

Qeyd edək ki, Liz Trass Baş nazir postunda cəmi 45 gün qaldı.

***Ağarza Elçinoğlu***



# Binəli Yıldırımdan Zəngilandan paylaşım

***Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri, Ak Parti sədrinin müavini Binəli Yıldırım Zəngilandan paylaşım edib.***

"Unikal" xəbər verir ki, o, bu barədə tviterdə yazıb. "Can Azərbaycanın işğaldan azad edilən ərazilərində Zəngilan



Beynəlxalq Hava Limanı, "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak etdik", - B.Yıldırıb bildirib. Qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanda səfərdədir. Onu müşayət edənlər arasında B.Yıldırım da var.

# Siyasi partiyalarla bağlı dinləmənin vaxtı açıqlandı

***Oktyabrın 24-də Milli Məclisdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin ictimai-siyasi əhəmiyyəti nəzərə alınaraq ictimai dinləmə keçiriləcək.***

Bu barədə "Unikal"a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Qeyd edək ki, Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələrinin müraciəti əsasında parlamentdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması ilə bağlı müvafiq iş aparılır.



# Məktəbdə şagirdlər bu halda telefondan istifadə edə bilər

***Məktəbdə şagirdlərin telefondan istifadə edəcəkləri hal müəyyənləşir.***

"Unikal" xəbər verir ki, bu, Elm və Təhsil Nazirliyinin hazırladığı "Ümumi təhsil müəssisələrində şagird davranış qaydaları" layihəsində öz əksini tapıb.

Qaydalarda bildirilir ki, əgər müəllimlər şagirdlərin şəxsi elektron cihazlarından (telefon, planşet və s. - red.) istifadə edəcəkləri dərs planlaşdırırsa, o zaman bunu ailələrə öncədən yazılı şəkildə bildirməli və cihazların təhlükəsiz şəraitdə saxlanmasını təşkil etməlidir. Əgər valideyn/qanuni nümayəndə övladına təhlükəsizlik məqsədilə (məktəbə gəlib gedərkən əlaqə saxlamaq üçün) elektron cihaz verərsə o zaman ümumi təhsil müəssisəsi dərs gününün sonuna qədər bu cihazların təhlükəsiz şəraitdə saxlanılmasını təmin etməlidir.Dərs müddətində elektron cihazlar şagirdlərə verilməməlidir. Qeyd edək ki, yeni hazırlanan qaydalar layihəsi bu gündən etibarən 2 həftə ərzində ictimai müzakirəyə çıxarılır. Toplanmış rəy və təkliflər nəzərə alınaraq sənədlərin son versiyası hazırlanacaq, 2023-cü ilin əvvəlindən etibarən isə tətbiqinə start veriləcək.

# 828 nəfər peyvənd olundu

***Azərbaycanda son gündə koronavirus əleyhinə 828 vaksin vurulub.***

Bu barədə "Unikal"a Nazirlər Kabineti yanında Operativ Qərargahdan bildirilib.

Məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 220, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 175, üç və daha çox doza üzrə vaksinasiya olunanların sayı 382, pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı 51 nəfərdir.

Qeyd edək ki, ölkədə indiyədək vurulan vaksinlərin ümumi sayı 13 905 220 təşkil edir.

**ELAN**

Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Saatlı rayon, Mollavaizli kənd sakini Pənahov Fuad Niyaz oğluna verilmiş torpaq sahəsinin planı və ölçüsü (AA№568934) itdiyi üçün etibarsız sayılır.

# Liderlər Qarabağdan növbəti birlik mesajı verdilər



***Oktyabrın 20-də Cəbrayıl şəhərində təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış ediblər.***

"Unikal" xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.

- Əziz qardaşım, hörmətli Cümhurbaşqanı. Əziz qonaqlar.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Əziz qardaşımı Cəbrayılda, Zəngilanda salamlamaq, "Xoş gəlmisiniz!" demək mənim üçün böyük şərəfdir. Bu gün biz birlikdə Zəngilan Hava Limanının açılışını qeyd etdik. Bir il bundan əvvəl əziz qardaşımın iştirakı ilə Füzuli Hava Limanını bir yerdə açdıq, bu gün Zəngilan Hava Limanını açdıq. Yəni, bu, onu göstərir ki, biz bütün xoş günlərdə bərabərik.

Bugünkü gün Qarabağ və Şərqi Zəngəzur üçün çox önəmli bir gündür. Bu gün Zəngilan şəhərinin işğaldan azad olunmasının ikinci ildönümüdür. Düz iki il bundan əvvəl erməni işğalına son qoyuldu. Azərbaycan Ordusu Zəngilan şəhərini azad etdi və məhz belə bir gündə Türkiyə Prezidentinin Azərbaycanda, Zəngilanda və Cəbrayılda olması xüsusi məna daşıyır.

Zəngilanın azad olunmasından bir neçə gün sonra Qubadlı erməni işğalından azad edildi və Azərbaycan Ordusunun bir qruplaşması Laçın istiqamətində irəliləməyə başlamışdı, digər qruplaşma isə Şuşaya istiqamət götürmüşdü. Alınmaz qala sayılan Şuşa noyabrın 8-də erməni işğalından azad edilmişdir, Azərbaycan Bayrağı qaldırılmışdır və ondan sonra Ermənistan təslim oldu.

Bütün bu şanlı tarix bizim müştərək tariximizdir. Çünki İkinci Qarabağ savaşının ilk saatlarından əziz qardaşım, Türkiyə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana dəstək ifadə etdi. Bildirdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu siyasi və mənəvi dəstək savaşın son gününə qədər davam edirdi. Bu, bizə əlavə güc verirdi, bu, bəzi qüvvələrin bu məsələyə müdaxiləsinin qabağını alırdı. Türkiyə-Azərbaycan birliyi bir daha zəfər çaldı. Bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük. Genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Bu gün əziz qardaşımla bərabər həm dəmir yolunun inşası ilə tanış olduq, "Dost Aqropark"ın açılışını birlikdə qeyd etdik. Bu da bu bölgəyə birinci özəl sərmayədir və bu aqroparkın adı da - "Dost Aqropark" özlüyündə hər şeyi deyir. İnşaat, yol çəkilişi işlərində Türkiyə şirkətləri bizimlə bərabər çalışır. Biz Türkiyə şirkətlərinə minnətdarıq ki, qısa müddət ərzində böyük işlər görür. Yolların, - yolların bir hissəsi artıq hazır vəziyyətdədir, - dəmir yolları, eyni zamanda, 33 tunelin inşası nəzərdə tutulmuşdur. Onların bir neçəsində fəal iş gedir. Tunellərin ümumi uzunluğu 50 kilometrdən çoxdur, 84 körpü tikiləcək, onların bir qismi inşa edilmişdir. Körpülərin ümumi uzunluğu 12 kilometrdir. Bu, ancaq birinci mərhələdə görülən və görüləcək işlərdir. Qarabağı və Şərqi Zəngəzuru tam bərpa etmək üçün daha böyük işlər görüləcək və biz bunu edəcəyik.

Bu gün bizim rəsmi mərasimimiz Cəbrayıl şəhərində keçirildi. Əslində, Cəbrayıl şəhəri yoxdur, çünki bax burada, oturduğumuz yerdə binalar olub, insanlar yaşayıb, həyat qaynayıb. Amma erməni işğalı dövründə ermənilər bizim bütün şəhərlərimizi, kəndlərimizi yerləbir etmişlər. Cəbrayıl şəhərindən bax bu dağılmış binalar qalıb. Bu dağıntılar Birinci Qarabağ savaşında deyil, məhz işğal dövründə ermənilər tərəfindən törədilmişdir. Görün onlarda Azərbaycan xalqına qarşı nə qədər nifrət var idi ki, bütün binaları yerlə-yeksan etdilər. Bunun əsas məqsədi ondan ibarət idi ki, azərbaycanlılar heç vaxt bu torpaqlara qayıtmasınlar, qayıtmağa yer olmasın. Ancaq biz qayıtmışıq, qan tökərək qayıtmışıq, savaşaraq, döyüşərək qayıtmışıq və bu gün artıq həyat bu bölgəyə qayıdıb, Ağalı kəndinin timsalında biz bunu görürük. Dünən mən Ağalı kəndində idim, məktəbə getmişdim. Məktəbdə 70 uşaq oxuyur. Yəni, o uşaqların heç biri buranı görməyib. Hətta onların bir çoxunun valideynləri də işğal dövründə doğulub, bir çoxları işğal baş verəndə özləri uşaq idi. Amma onlar qayıdıblar. Çünki torpaq çəkir, Vətən çəkir və hamımız qayıdacağıq. Bütün keçmiş məcburi köçkünlər qayıdacaqlar. Biz onların qayıdışı üçün əlimizdən gələni edirik, gecə-gündüz çalışırıq və bu bərpa-quruculuq işlərində türk qardaşlarımız bizimlə bir yerdədirlər.

Bu gün Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təntənəsidir. Türkiyə kimi qüdrətli ölkə bizim qardaşımızdır, bu, bizim üçün böyük xoşbəxtlikdir. İkinci Qarabağ savaşı, savaşdan sonrakı dövr bu birliyi daha da gücləndirdi. Keçən il biz Şuşada Şuşa Bəyannaməsini imzaladıq və Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldu. Bütün sahələrdə müttəfiq oldu və bu, həm xalqlarımıza ciddi gözaydınlığıdır, eyni zamanda, bölgəyə və dünyaya ciddi mesajdır. Çünki Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir. Bu, sülh, sabitlik amilidir. Ancaq, eyni zamanda, əgər kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu amili ciddi nəzərə almalıdır.

Əziz Qardaşımın liderliyi sayəsində Türkiyə son illər böyük uğurlu yol keçib, dünya çapında güc mərkəzinə çevrilib. Türkiyədəki sabitlik, inkişaf göz qabağındadır. Bu gün dünyanın bir çox ölkələrində böhran yaşanır, ölkələr idarəolunmaz vəziyyətə düşür, iqtisadi çətinliklər, sıxıntılar insanların haqlı etirazına səbəb olur. Türkiyə isə inamla irəliləyir, nəhəng layihələr gerçəkləşdirir, bölgədə söz sahibidir, dünyada önəmli güc mərkəzidir. Hər kəs bununla hesablaşmalıdır və hər kəs bilməlidir ki, bu uğurların səbəbkarı mənim qardaşım Rəcəb Tayyib Ərdoğandır. Azərbaycanda Tayyib bəyə çox böyük hörmət, məhəbbət vardır və bunu Azərbaycana gələn hər bir insan görür.

İkinci Qarabağ savaşından sonra Türkiyə-Azərbaycan qardaşlığı, birliyi daha da yüksək pilləyə qalxıb. Yəqin siz də görürsünüz ki, hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır. Bu, ürəkdən gələn duyğulardır, bu, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyətidir və bu, zəmanəmizin tələbidir. Bu gün əziz Qardaşımın böyük heyətlə, hökumət nümayəndələri ilə burada olması bir daha onu göstərir ki, biz hər zaman olduğu kimi, bir yerdəyik və bir yerdə olacağıq. Bundan sonra bölgədə gedən işlər, əlbəttə ki, Türkiyə və Azərbaycanın fəal iştirakı və izni ilə aparılacaq. İstər siyasi təşəbbüslər, iqtisadiyyat, enerji, nəqliyyat - bütün bu sahələrdə bizim işbirliyimiz artıq regional çərçivədən çıxıb, beynəlxalq səviyyəyə qalxıbdır.

Əziz Qardaşım, bu əziz gündə bizimlə bərabər olduğunuz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə xalqına xoşbəxtlik, sülh arzulamaq istəyirəm. Yaşasın Türkiyə-Azərbaycan birliyi, qardaşlığı!

Sonra Türkiyə Prezidenti bəyanatla çıxış etdi.

- Hörmətli cənab Prezident, əziz Qardaşım. Hörmətli nazirlər. Sizləri ən səmimi hisslərimlə, məhəbbətlə salamlayıram.

Əvvəlcə, Can Azərbaycanın iki gün əvvəl qeyd etdiyi Müstəqilliyin Bərpası Gününü bir daha təbrik edirəm.

İşğaldan azad edilən qədim Azərbaycan torpaqlarında bir il ərzində ikinci hava limanının açılışında iştirak etmək, ikinci hava limanını həqiqətən müasir dünyanın müşahidə etdiyi şəkildə ən müasir hava limanlarından biri olaraq açmaq bu qədər çətin dövrdən sonra hər ölkənin bacara biləcəyi bir iş deyildir. İndi sağıma, soluma baxıram, işğal dövründə Cəbrayılı nə hala salmışlar. Mən Qardaşımdan soruşdum, dedim, bu ATƏT, Avropa İttifaqı buraları gəlib görmədimi? Yox, gəlmirlər. Niyə gəlmirlər? Çünki öz üzqaralarını görəcəklər, Qərbin etdiklərini görəcəklər. Onlar burada dəstəklədikləri həmin işğal dövründə Cəbrayılı, Qarabağın digər bölgələrini nə hala gətirdiklərini görəcəklər. Təbii ki, bunları görmək istəmirlər. Əslində, onlar nələr törədildiyini bilirlər.

Amma bunu görəndən sonra bu barədə danışdıq, bu işləri mütləq ədalət mühakiməsinə verərək, bunların təzminatını tələb etmək lazımdır. Bunların təzminatını istəyərək onları dalana dirəmək lazımdır. Dünya Qərbi çox yaxşı tanımalıdır, hamımız birlikdə tanıtmalıyıq.

Dağıdılmış, yerlə-yeksan edilmiş bu bölgələr hazırda qardaşım İlham Əliyevin liderliyi ilə bənzərinə az rast gəlinən böyük bir inkişaf həmləsi ilə yenidən dirçəlir. Körpüləri, dəmir yolları, avtomobil yolları, magistralları ilə yenidən bir Azərbaycan inşa edilir. İndi biz bunları yaşayırıq, görürük. Eşidərək deyil, görərək bu ifadələri işlədirik. Bu, təbii ki, başda qardaşım İlham Əliyev olmaqla, bütün komandası ilə əl-ələ verərək atdıqları addımlar, gördükləri işlərlə bu qədər qısa müddətdə Azərbaycan, necə deyərlər, burada sıfırdan başlayaraq yenidən ayağa qalxır.

Bu gün Zəngilanda açılışını etdiyimiz Beynəlxalq Hava Limanı Azərbaycanın qəhrəmanlıq dastanından sonra indi də Qarabağın inkişaf dastanının yazılmasının bir göstəricisidir. Belə mühüm bir layihədə türk şirkətlərinin də yer alması bizim üçün də ayrıca bir iftixar mənbəyidir.

Azərbaycanlı qardaşlarımızın azad edilən torpaqlara qayıtmağa başlamaları da bizi həddindən artıq sevindirir. Böyük Qayıdış prosesi çərçivəsində azərbaycanlı qardaşlarımızın "Ağıllı kənd" konsepsiyasına uyğun inşa edilən Ağalı kəndində məskunlaşmaları ilə Vətən həsrətlərinin, İnşallah, başa çatdığını görürük. Ağalı kəndini gördük, oraya bundan sonra artıq kənd deyə bilmərik. Ora artıq müasir bir şəhər kimi inkişaf edir.

Onun yanında "Dost Aqropark"ı gördük, orada kənd təsərrüfatı, o cümlədən heyvandarlıq sahəsində həqiqətən çox mühüm addım atılmışdır. Bir il əvvəl təməlqoyma mərasimində gələndə çox fərqli bir ərazi idi. Amma indi kənd təsərrüfatı sahəsində çox ciddi iş görülərək bu ərazinin necə dirçəldildiyini gördük. Burada təxminən üç min baş cins qaramalın olması, bu imkanın da dəyərləndirilərək bir tərəfdən onların kəsimi, digər tərəfdən bəslənməsi, artırılması - bu istiqamətdə görülən işlərlə bu addım həqiqətən də Böyük Qayıdış layihəsinin həyata keçirilməsidir.

Yolda gələrkən hörmətli Qardaşım bəzi məsələləri də mənə izah etdi. Misal üçün, burada ən önəmli məsələ sudur. Su məsələsinə gəldikdə, qısa müddətdə burada su anbarının inşası ilə bu problem də aradan qaldırılacaq. Beləliklə, bu tarlalarda kənd təsərrüfatının inkişafı sayəsində çox ciddi nəticə əldə edəcəklərini söylədilər, həqiqətən bizim də gördüyümüz və inandığımız budur.

Çox qısa müddətdə burada kənd təsərrüfatı sahəsində də ciddi nəticələrin əldə ediləcəyini gördük. Ot bağlamalarının düzülüşü bizə o nəticəni göstərir. Biz də tədbiri ot bağlamalarının üzərində oturaraq izlədik. Buna görə də təbrik edirik. Yəni, minaların yerini artıq bunlar alıb. İnfrastruktur problemini tamamilə aradan qaldırmağa çalışırlar. Zənn edirəm ki, bir ildən sonra gələndə Cəbrayıl yolunun çox fərqli vəziyyətdə olacağını görəcəyik. Çünki burada da infrastruktur məsələləri ilə bağlı ciddi addımlar atılır. Burada da "Cengiz", "Kalyon" şirkətlərinin müştərək fəaliyyəti ilə bu addımlar da atılmışdır. Ötən səfərimdən bir il sonra burada asfaltlanma işlərinin aparıldığını, körpülərin inşa olunduğunu, bu gün təməlini qoyduğumuz dəmir yolu ilə bağlı addımların atıldığını gördük. Dəmir yolunun buraya gətirilməsi buradakı inkişaf hərəkatının həqiqətən böyük bir layihə olaraq necə sürətlə həyata keçirilməsinin nümayişi baxımından böyük önəm daşıyır.

Qarabağın inkişaf planı çərçivəsində başda kənd təsərrüfatı, "yaşıl enerji" və "ağıllı şəhərlər" olmaqla, bütün layihələrdə Türkiyə Azərbaycanın yanında olmağa hazırdır.

Artıq həmrəylik əsasında atdığımız addımlar var. Bunları inkişaf etdirərək daha mühüm və nəhəng layihələri birlikdə həyata keçirməyə hazırıq. Təbii ki, mühüm addımlardan daha biri olan - Cəbrayılda təməlini qoyduğumuz "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksi də həmrəyliyimizin rəmzidir.

Hörmətli media nümayəndələri,

Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq mənə görə reallıqdan uzaqdır. Yəni, artıq bütün Qarabağla bağlı atılan bu addımlardan sonra belə bir qorxuya ehtiyac yoxdur. Azərbaycan əmin addımlarla yoluna davam edir. Bu yol bölgənin sülh, əmin-amanlıq və sabitliyinə töhfə verəcəyi kimi, Xəzərdən keçməklə Şərq-Qərb, Orta Dəhliz marşrutları üzərində yerləşən bütün ölkələr üçün ticarət və sərmayə imkanları təqdim edəcək.

Azərbaycan 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad edib, 30 ildir verilməyən haqqını geri alıb. Ermənistan ilə müzakirələrdə səmimi addımlar atan və müsbət təkliflər irəli sürən Azərbaycan əsas hədəfinin davamlı sülh, firavanlıq və sabitlik olduğunu ortaya qoyub. Hər zaman söylədiyim kimi, sülhün uduzanı olmaz. Yeganə məqsədimiz bölgəmizin firavan gələcəyini inşa etməkdir.

Azərbaycan-Ermənistan və Türkiyə-Ermənistan normallaşdırma prosesləri bir-birini dəstəkləyəcək şəkildə irəliləməkdədir. Açılan bu fürsət pəncərəsini yaxşı dəyərləndirmək lazımdır.

Hörmətli media nümayəndələri, Cümhuriyyətimizin 100-cü ilini qeyd edəcəyimiz 2023-cü ilin Azərbaycanda da "Heydər Əliyev İli" olaraq qəbul edilməsindən məmnunluq duyuruq. Ümummilli Liderimiz Heydər Əliyevin əziz xatirəsini birlikdə yaşatmağa davam edəcəyik.

Sözlərimi bu düşüncələrlə yekunlaşdırarkən şəxsən mənə və nümayəndə heyətimə göstərilən qonaqpərvərliyə görə xüsusilə millətim adından minnətdarlığımı ifadə edir, təşəkkürümü bildirirəm.

Rəbbim birliyimizi, bərabərliyimizi əbədi etsin! Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!

# “Azərbaycan Ermənistan üçün sonuncu xəbərdarlığını edib

## Elman Nəsirov: “Ermənistanın indiyə qədərki və hazırlaşdığı növbəti hərbi təxribatın motivi odur ki, müharibə bitməyib, münaqişənin həllini gözləyən məsələlər var”

***Milli Məclisin deputatı Elman Nəsirov ”Unikal”a müsahibə verib. Deputat Ermənistanın sərhədə qoşun yığmasının səbəblərindən, Ermənistan-Azərbaycan sülh müqaviləsinin nə zaman imzalana biləcəyindən, Zəngilan aeroportunun strateji əhəmiyyətindən və digər məsələlərdən danışıb.***

***-Son günlər Ermənistan silahlı qüvvələrinin bölmələri sərhəddə yerləşən mövqelərimizi atəşə tutur. Bununla yanaşı, Ermənistanın sərhədə qoşun yığması ilə bağlı görüntülər də yayılıb. Onların bu addımlarının məqsədi nədir?***

-Ermənistan tərəfinin atdığı addımların hamısı məqsədyönlü şəkildə icra olunur və onların hədəfləri bizə bəllidir. Bu ölkənin ali-siyasi rəhbərliyi Azərbaycanın bu ilin marta ayında irəli sürdüyü 5 baza prinsipini qəbul edir. Yəni, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını etiraf edir. Digər tərəfdən isə 5 baza prinsipini 5+1 variantına salmaq istəyir. Bu, beş baza prinsipinə genişləndirilmiş yanaşmanı özündə ehtiva edir. Əlavə etmək istədikləri odur ki, Qarabağda yaşayan ermənilərin hüquqları və təhlükəsizlik məsələləri önəmlidir. Bir qədər də açıq söyləyirlər ki, orada yaşayan ermənilərin statusu məsələsinin müzakirə edilməsini istəyirlər. Eyni zamanda, status məsələsinin həlli ilə bağlı ATƏT-in Minsk qrupuna yenidən müraciət edilməsini gündəmə gətirirlər. Bu cür prosesi labirintə salmaq istəyirlər. Prezident İlham Əliyevin mövqeyi bəllidir. Heç bir statusdan söhbət gedə bilməz. Ümumiyyətlə, Dağlıq Qarabağ deyilən inzibati ərazi vahidi yoxdur. Qarabağ və Zəngəzur iqtisadi rayonu var. ATƏT-in Minsk qrupu isə özü-özünü buraxmış kimidir. Çünki onların həmsədrləri bir-birinə düşmən kəsiliblər, fəaliyyətlərini dayandırıblar. ATƏT-in Minsk qrupu artıq ölüb. Belə olan vəziyyətdə Ermənistan tərəfi təxribatlara əl atmaqla istəyir dünyaya nümayiş etdirsin ki, Azərbaycan tərəfi deyir müharibə, münaqişə bitib, biz isə bunu qəbul etmirik. Onlar bu addımları ilə göstərmək istəyirlər ki, müharibə bitsə idi, nədən silahlı toqquşma və təxribat olur. Ermənistanın indiyə qədərki və hazırlaşdığı növbəti hərbi təxribatın motivi odur ki, müharibə bitməyib, münaqişənin həllini gözləyən məsələlər var. Azərbaycan Prezidentinin mövqeyi birmənalıdır, qətiyyətlidir. Biz Ermənistanla sülh, əməkdaşlıq istəyirik. Buna getməyəcəkləri təqdirdə onları nə gözlədiyini proqnozlaşdırmaq elə də çətin deyil. Astanadakı çıxışında Prezident İlham Əliyev vurğuladı ki, bizim də səbrimiz hüdudsuz deyil. Bu sonuncu ifadə Ermənistan üçün ciddi siqnal olmalıdır.

***-Əsas müzakirə mövzularından biri də Ermənistan-Azərbaycan sülh müqaviləsinin imzalanması ilə bağlıdır. Bu ilin sonuna kimi sülh müqaviləsi imzalana bilərmi?***

-Prezident Ağdamda olarkən çıxışında vurğuladı ki, ilin sonuna qədər proseslər belə gedərsə, müsbət dinamika saxlanılarsa, ilin sonuna qədər sülh müqaviləsinin imzalanmasını gözləyirik. Ermənistanın siyasi lideri də bir çox hallarda oxşar mövqedən çıxış etdiyini bildirib. Qeyd edib ki, sülh danışığı aparmaq üçün xarici işlər nazirinə tapşırıqlar verilib. Bu ayın sonunda delimitasiya və demarkasiya məsələləri ilə bağlı danışıqlar olmalıdır. O da Brüsseldə keçirilməlidir. Azərbaycan tərəfi bunu çoxdan edib. Ermənistan tərəfi isə indi sülh müqaviləsinin hazırlanması üçün işçi qrupu formalaşdırdığını bildirib. Ermənistanın da sülh müqaviləsinə getmək üçün zəif və kövrək də olsa addımlar atdığı diqqətdən yayınmır. Amma bu addımlar bir çox hallarda həyatda əməli təsdiqini tapmır. Məsələn, Ermənistan 10 noyabr bəyanatına görə öhdəlik götürüb ki, Qarabağdakı silahlı qüvvələrini çıxardacaq, bunu etmir. Həmin sənədin 9-cu bəndinə əsasən, Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında kommunikasiyaların bərpası ilə bağlı öhdəlik götürüb ki, onu da icra etmir. Bu reallıqlar da mövcuddur. Ona görə də birmənalı fikir söyləmək çətindir.

***-Ötən gün Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak ediblər. Zəngilan aeroportunun ölkəmiz üçün strateji əhəmiyyəti nədən ibarətdir?***

-Bu, Azərbaycanın Qarabağ bölgəsində istifadəyə verdiyi ikinci beynəlxalq hava limanıdır. Bundan əvvəl Füzulidə hava limanının açılışı olmuşdu. Qarabağda bu hava limanlarının istifadəyə verilməsi tarixi hadisələrdir. Bu prosesdə qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da şəxsən iştirak etdi. Türkiyə Prezidentinin iştirakının böyük mənası, siyasi əhəmiyyəti və çəkisi var. Sonuncu Praqa danışıqlarından sonra Fransa Prezidenti Emmanuel Makron təxribatçı bəyanatlarla çıxış edərək Azərbaycanı ittiham etdi. Əsas fikri oldu ki, Fransa hər zaman Ermənistanın yanındadır. Bu reallıqda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngilan Beynəlxalq Hava Limanının açılışına gəlişi Ermənistana, dünya ictimaiyyətinə, xüsusilə, Emmanuel Makrona və Fransa ictimaiyyətinə çox ciddi mesajdır ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır. Ən ciddi mesaj isə odur ki, ağlınızı başınıza yığın, səhv addımlar atmayın, əməkdaşlığa köməklik edin, regionda qarşıdurma mühiti yaradan toxumlar səpməyin. Azərbaycan və Türkiyə qardaşlığı, dostluğu əbədidir, sarsılmazdır. Heç kim bizim aramıza girməyə çalışmasın, hədə ilə bizimlə danışmasın. Türkiyə və Azərbaycan hər zaman bir yerdədir. Bunun çox böyük mənası var. Türkiyə bu gün dünyada mühüm bir güc mərkəzinə çevrilib. Türkiyə beynəlxalq sülhə və təhlükəsizliyə misilsiz töhfələr verir. Rusiya-Ukrayna müharibəsində heç bir dünya lideri önə çıxıb Yaxın Şərq və Afrika ölkələrini cənginə almış total aclığın qarşısının alınması istiqamətində addım atmadı. Bu addımı Türkiyə lideri ata bildi. İstanbul sazişini imzaladı. 350-dən çox yük gəmisi Yaxın Şərq və Afrika ölkələrinə buğda çatdırıb. Rusiya-Ukrayna müharibəsinin gedişatında hərbi əsirlər problemi var idi. Onu da Ərdoğan həll etdi. Bu gün Türkiyə 4 milyondan çox qaçqına qucaq açıb ki, onların hamısının ünvanı Avropa ölkələri olmalı idi. Türkiyə onları qəbul edərək 30 milyard dollardan çox vəsait xərcləyib. Həmçinin, Cənubi Qafqazda sülhün əldə edilməsi üçün Türkiyə Prezidenti tayı bərabəri olmayan fəaliyyət nümayiş etdirir. Rəcəb Tayyib Ərdoğanın Zəngilan Beynəlxalq Hava Limanının açılışına qatılması sülh gəlişidir, əminamanlığa, təhlükəsizliyə xidmət edir. Bu, müharibəyə çağırışla bağlı gəliş deyil. Bunu dünya qəbul etməli və bilməlidir. Bunları nəzərə alaraq belə bir təkliflə çıxış etdim ki, bütün bu xidmətləri nəzərə alıb Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın gələn il Beynəlxalq Sülh Mükafatına layiq görülməsi ən ədalətli qərar olardı.



***-Siz də bundan əvvəl dünyanı narahat edən Rusiya-Ukrayna müharibəsi ilə bağlı fikirlər səsləndirdiniz. Necə düşünürsüz, bu müharibə nə zaman və necə yekunlaşa bilər?***

-Bu müharibənin yekunlaşması üçün qarşı tərəflər heç bir addım atmırlar. Hər gün müharibə daha da dərinləşir, dünyanı Üçüncü Dünya müharibəsinə, qlobal fəlakətə və nüvə müharibəsinə doğru aparır. Bu, çox təhlükəlidir, dəhşətlidir, qlobal fəlakət ola bilər. Bu reallıqda yenə də qardaş Türkiyə dövlətinin səyləri diqqətdən yayınmır. Bu gün Rusiya, Qərb və eləcə də Türkiyə mətbuatında yayılan məlumatlardan biri diqqəti cəlb edir. Qeyd olunur ki, Türkiyə dövləti bir tərəfdən Rusiya, digər tərəfdən ABŞ, Böyük Britaniya, Fransa, Almaniyanın iştirakı ilə Rusiya-Ukrayna müharibəsinin dayandırılması ilə bağlı görüş təşkil etmək istəyib, belə bir təşəbbüslə çıxış edib. Bu barədə mətbuat yazır. Rəsmən təsdiqlənməsə də, bu informasiyalar dolaşmaqdadır. Yenə də Türkiyənin və Rəcəb Tayyib Ərdoğanın adı çəkilir. Kollektiv Qərb və Rusiya bütün körpüləri yandırıb. Vasitəçi olmasa, onlar heç bir zaman bir-birilərinə əl uzadıb dəyirmi masa arxasına əyləşməyəcəklər. Bunu edə biləcək yeganə güc Türkiyə və onun lideri cənab Ərdoğandır.

***Anar Kəlbiyev***

# Arif Rəhimov müəmması

## Mərhum nazirin oğlu vəzifəsindən niyə kənarlaşdırıldı?

***Formula 1 Azərbaycan Qran-Prisinin təşkilatçısı olan Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin (BŞH) icraçı direktoru Arif Rəhimov vəzifəsindən azad edilib. Bu barədə BŞH məlumat yayıb.***

Onun yerinə isə Maqsud Fərzullayev təyin olunub.

Qeyd edək ki, Arif Rəhimov mərhum gənclər və idman naziri Azad Rəhimovun oğludur. Həmçinin, xatırladaq ki, o, 7 il Bakı Şəhər Halqasının icraçı direktoru olub.

Arif Rəhimovun bu postdan kənarlaşdırılmasının səbəbi bəlli deyil. Lakin maraqlıdır ki, cəmi üç ay öncə mərhum nazirin oğlu optimist açıqlamalarla çıxış etmişdi. O, bildirmişdi ki, "Azərbaycan Qran-Prisi 2016-cı ildən Formula 1 təqvimində yer alır. Yürüş azarkeşlər tərəfindən böyük maraqla qarşılanır və bu, bizi çox sevindirir".



Avstriyanın "motorsport-magazine.com" saytına müsahibəsində A.Rəhimov bunu da demişdi ki, Azərbaycanda indiyədək 6 yarış təşkil olunub. Sitat: " "Əsas hədəfimiz Bakıda daha çox yürüşün keçirilməsi və yarışın tarixi status almasıdır. Bakının yürüşün Montsa, Monako və Spa kimi yarışlarla eyni status qazanmasını istəyirik. Əgər Formula 1 rəhbərliyi ilə uzunmüddətli müqavilə bağlasaq, o zaman Bakı da ənənəvi yarışların keçirildiyi məkana çevriləcək. Azarkeşlər bilirlər ki, may ayının sonuncu bazar günü Monako Qran-Prisi təşkil olunur. Biz istərdik ki, Azərbaycan Qran-Prisi üçün həmin tarix iyunun ayının ortası kimi tanınsın".

"İdman ənənələrini qoruyub saxlamaq lazımdır. Mən ənənəvi yarışların təqvimdə qalmasını istəyirəm. Bu treklər yarış ruhunu daşıyır. Onlar hər kəs üçün yaxşıdır. Ənənənin olması hər bir idman növü üçün vacibdir. Əgər bu baş vermirsə, həmin yarışa azarkeşlərin marağı az olacaq", - deyə A.Rəhimov əlavə eləmişdi.

Yuxarıdakı açıqlamalardan göründüyü kimi, mərhum nazirin oğlunun Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin icraçı direktoru kimi Formula 1 Azərbaycan Qran-Prisi ilə bağlı müxtəlif planları var imiş. Məhz həmin hədəflər, planlar fonunda onun vəzifədən kənarlaşdırılması maraq doğurmaya bilməz.

Onu da deyək ki, yerli mətbuatın yazdığına görə, 2009-cu ilin oktyabrından 2011-ci ilin noyabr ayınadək Azərbaycan Dövlət Neft Şirkətində maliyyə meneceri vəzifəsində işləmiş Arif Rəhimov sonradan "DDLAR GROUP" adlı özəl şirkətini qurub. Həmin bu şirkət vasitəsilə Avroviziya və Olimpiya oyunları komplekslərinin tikilməsinə ayrılan büdcə və layihələr həmin şirkətə həvalə olunub.

O da bildirilir ki, "DDLAR Group" əslində 1999-cu ildən fəaliyyətə başlayan "İNŞAAT-Çİ" tikinti firmasının varisidir. Bakı rayonlarında tikilən "Premium" və "De Lüks" sinifli komplekslər də bu qrupun məhsuludur. "Belə bir şirkəti yaratmamışdan əvvəl sadəcə iki il - 2009-cu ilin oktyabrından 2011-ci ilin noyabrınadək Dövlət Neft Şirkətində maliyyə meneceri vəzifəsində işləyən Arif Rəhimov bu qədər geniş biznes layihələri həyata keçirmək üçün ilkin maliyyəni haradan əldə edib?!" deyə KİV uzun müddətdir soruşur.

Qeyd edək ki, Bərdə, Şirvan, Xaçmaz, Daşkəsən, İmişli, Cəlilabad, Mingəçevir, Ağcabədi, Tovuz və Göygöl rayonlarındakı idman olimpiya kompleksləri də (İOK) məhz "DDLAR GROUP" tərəfindən layihələndirilib və tikilərək istifadəyə verilib. Bu komplekslərlə bağlı isə xeyli vaxtdır mübahisələr gedir. Xüsusilə, az qala, bir-birinin təkrarı olan həmin komplekslərin hər birinin başa gəlmə xərcləri arasında kəskin uçurum var. Məsələn, Qəbələ Olimpiya İdman Kompleksinin tikintisinə 11 milyon manat xərcləndiyi halda, Şirvan Olimpiya Kompleksinə 6,8 milyon, Xaçmaz İdman Kompleksinə isə 8 milyon manat xərclənib.

O da maraqlıdır ki, adətən özü və nazirliyi barədə tənqidlərə bir qayda olaraq susqunluq nümayiş etdirən Azad Rəhimov 3 il öncə bu mövzuda KİV-in yazdıqlarına nəyə görəsə dərhal və kəskin reaksiya vermiş, hətta ANS telekanalını məhkəməyə vermək istəmişdi...

Onu da vurğulayaq ki, son zamanlar İOK-ların inşası və səmərəliliyi, effektiv fəaliyyəti yenidən müzakirə mövzusudur. Hətta bu günlərdə Gənclər və İdman Nazirliyinin mərhum Azad Rəhimovun zamanındakı fəaliyyətini yoxlayan Hesablama Palatasının audit nəticələrinə dair sənədlərində bildirilirdi ki, olimpiya idman komplekslərinin daxilolmalarla bağlı istifadə imkanlarının tam və düzgün reallaşdırılmaması əlavə gəlirlərin əldə edilməsi imkanlarını məhdudlaşdırmaqla, idman komplekslərinin fəaliyyətinin əsasən dövlət büdcəsindən ayrılmış vəsait hesabına təmin edilməsinə səbəb olub...

Mərhum nazir vəzifədə ikən isə Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında demişdi ki, Azərbaycandakı olimpiya idman komplekslərinin 90%-i dövlət büdcəsi hesabına saxlanılır...

Belə çıxır ki, bu qurğuların inşasından qazanan daha çox mərhum nazirin oğlunun şirkəti olub...

***Sənan Mirzə***

# Leyla Abdullayevanın yerinə o təyin edildi

***Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin (XİN) əmri ilə Ayxan Elxan oğlu Hacızadə XİN-in Mətbuat Xidmətinin rəhbəri vəzifəsinə təyin edilib.***



Bu barədə "Unikal"a XİN-in Mətbuat xidməti idarəsindən bildirilib.

Ayxan Hacızadə 1981-ci ildə anadan olub. Bakı Dövlət Universitetinin Beynəlxalq Münasibətlər və Beynəlxalq Hüquq fakültəsinin bakalavr və magistr pillələrini bitirib. ABŞ-ın Milli Müdafiə Universitetinin Strateji Təhlükəsizlik Elmləri üzrə magistr dərəcəsinə malikdir. Xarici ölkələrdə bir sıra tədris proqramı və təlimlərdə iştirak edib, Corc Marşal adına Avropa Təhlükəsizlik Elmləri Mərkəzində Ali Təhlükəsizlik Proqramının və BMT-nin Tərksilah məsələləri üzrə Təqaüd Proqramının məzunudur.

2007-ci ildən etibarən Xarici İşlər Nazirliyində müxtəlif diplomatik vəzifələr tutub. 2010-2014-cü illərdə Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyində, ATƏT və BMT-nin Vyana şəhərində yerləşən təşkilat və qurumları yanında daimi nümayəndəliyində üçüncü və ikinci katib, 2017-2022-ci illərdə Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı Səfirliyində birinci katib və müşavir vəzifələrində çalışıb. 2022-ci ilin iyul ayından etibarən Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəis müavini vəzifəsində işləyib.

Ailəlidir, üç övladı var.

# Azərbaycanda enerji böhranı olmayacaq - Nazir



***İlin sonuna və qarşıdakı illərdə elektrik enerjisinin istehsalında əhəmiyyətli həcmlərdə artım gözlənilir.***

"Unikal"ın məlumatına görə, bu barədə energetika naziri Pərviz Şahbazovun 20 Oktyabr - Energetiklər Gününə həsr olunmuş bugünkü məqaləsində bildirilib.

Qeyd edilib ki, 2022-ci ilin sonuna 28,5 milyard kVt st, 2023-cü ildə 29,9 milyard kVt st elektrik enerjisinin istehsalı proqnozlaşdırılır. Növbəti illərdə elektrik enerjisinin istehsal dinamikası artıq bərpa olunan enerji mənbələrinə əsasən formalaşacaq. Bunun üçün zəngin potensial, bərpa olunan enerjinin inkişafını prioritetləşdirən dövlət siyasəti, yeni qanunvericilik bazası və xarici investisiyaların cəlbi kimi bütün zəruri şərtlər mövcuddur.

"Belə ki, Azərbaycanın quruda 26 qiqavatdan çox külək və günəş enerjisi, Xəzər dənizində 157 qiqavat külək enerjisi potensialı var. Azad edilmiş ərazilərdə - Qarabağ və Zəngəzurda isə külək, günəş və hidroenerji potensialı 10 qiqavatdan çoxdur. Bu potensialdan yararlanmaqla elektrik enerjisinin qoyuluş gücündə bərpa olunan enerjinin payını 2026-cı ildə 24%-ə, 2030-cu ildə isə 30%-ə çatdırmaq hədəfi çərçivəsində bu ilin yanvar-mart aylarında Azərbaycanın enerji tarixində ilk dəfə olaraq xarici investisiya əsaslı külək və günəş elektrik stansiyalarının təməli qoyuldu.

Ümumi investisiya dəyəri 500 milyon dollardan çox olan 240 MVt gücündə Xızı-Abşeron" KES və 230 MVt gücündə "Qaradağ" GES layihələri üzrə hazırda işlər davam etdirilir. Ölkəmizdə energetika sahəsində xarici investisiya əsaslı ilk layihələr çərçivəsində tikiləcək bu stansiyaların istismara verilməsi nəticəsində ildə 1,5 mlrd. kVt st elektrik enerjisinin istehsalı, 330 mln.m3-dən çox təbii qaza qənaət edilməsi, 600 min tondan çox karbon emissiyasının qarşısının alınması gözlənilir".

# Xarici KİV nümayəndələri Gəncədə

***Moldova, Özbəkistan və Gürcüstandan olan jurnalistlər Gəncədə erməni terroru nəticəsində dağılan ərazidə olublar.***



"Unikal" xəbər verir ki, jurnalistlər Qələbə parkını ziyarət edibdər. Media nümayəndələri Ermənistan silahlı qüvvələri tərəfindən Gəncənin raket atəşinə tutulması nəticəsində dağılan ərazilərə gəlib, günahsız mülki insanlara qarşı həyata keçirilmiş hərbi cinayətlərin nəticələri ilə yerində tanış olub, 44 günlük Vətən müharibəsi zamanı ballistik raketlə hədəf alınan yaşayış massivinə baş çəkiblər.

Qonaqlara qətliamla bağlı ətraflı məlumat verilib. Jurnalistlər erməni terroru zamanı həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq, dağılmış evlərin ətrafına gül düzüblər.

***Tural Əhmədov***

# ATƏT nümayəndələri Azərbaycan-Ermənistan sərhədinə gedəcək



***ATƏT Ermənistan Respublikası hökumətinin dəvətindən sonra, oktyabrın 21-27-də ölkəyə ehtiyacların qiymətləndirilməsi üçün qrup göndərəcək.***

"Unikal" xəbər verir ki, bu barədə ATƏT-in rəsmi saytında qeyd olunub.

Səfərin məqsədi ATƏT-in mandatı və onun hərtərəfli təhlükəsizlik konsepsiyası çərçivəsində ekspertizası əsasında müəyyən sərhədyanı ərazilərdə vəziyyəti qiymətləndirməkdir.

Beynəlxalq ekspertlərdən və ATƏT Katibliyinin nümayəndələrindən ibarət texniki qrup Ermənistan-Azərbaycan sərhədi boyu ərazilərə səfər edəcək və yerli maraqlı tərəflərlə, eləcə də yerlərdə beynəlxalq tərəfdaşlarla məsləhətləşmələr aparacaq.

*Ağarza Elçinoğlu*

# Zəngilan aeroportunun strateji əhəmiyyəti nədir? - Açıqlama




***"45 dəqiqəyə Bakıdan Şərqi Zəngəzura çatacayıq. Bu gün açılışı planlaşdırılan Zəngilan Beynəlxaq Hava Limanı bu imkanı bizlərə yaşadacaq".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, Azərbaycan 2 ildən qısa müddətdə işğaldan azad olunan ərazilərimizdə ikinci beynəlxalq hava limanını istifadəyə verir: "Bu, ölkəmizin gücünü göstərməklə yanaşı, Qarabağ və Şərqi Zəngəzurun intensiv bərpa olunduğundan və eləcə də həmin bölgələrdə təhlükəsizlik tədbirlərinin daha da gücləndirildiyindən xəbər verir. Bu gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təyyarəsi ikinci dəfə azad Qarabağa eniş edəcək. Qardaş ölkənin rəhbəri Azərbaycan Prezidenti İlham Əliyev ilə birlikdə Zəngilan Beynəlxalq Hava Limanının açılışında iştirak edəcəyi gözlənilir. Regionda baş verən iqtisadi və geo-siyasi dəyişikliklər işğaldan azad olunan ərazilərimizdə 3 hava limanına niyə ehtiyacın olduğunu bir daha təsdiq etdi. Hər 3 hava limanı bütün növ təyyarələri qəbul edə biləcək".

Deputat qeyd edib ki, bu gün açılışı olacaq Zəngilan Hava Limanı həm iqtisadi, həm də strateji baxımdan ən vacib layihələrdən biridir: "Zəngilan iqtisadi və turizm baxımından böyük potensiala malik rayondur. Burada istehsal olunan məhsullar ölkəmizdə istifadə olunmaqla yanaşı, birbaşa xarici ölkələrə çıxarıla biləcək. Zəngilan Hava Limanı yaxın gələcəkdə istifadəyə veriləcək Zəngəzur dəhlizinə inteqrasiya olunacaq. Bundan sonra hava limanı şərq-qərb, şimal-cənub nəqliyyat dəhlizlərinin də elementinə çevriləcək. Bu da Zəngilan daxil olmaqla həmin ərazilərimiz vasitəsilə daşınan beynəlxaq yüklərin həcminin artmasına və Azərbaycanın daha çox gəlir əldə etməsinə imkan verəcək. Şərqi Zəngəzurda turizm potensialı yüksək olduğundan bu hava limanının tikilməsi yerli və beynəlxalq uçuşlar baxımından əhəmiyyətlidir".

*Seymur Əli*

# Uşaqla sərhəddən qanunsuz keçmək istəyən şəxs saxlanıldı

***Oktyabr ayının 20-də saat 01:20-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin Ağstafa rayonunun Sadıqlı kəndi ərazisində yerləşən sərhəd zastavasının xidməti sahəsində sərhəd naryadı tərəfindən Gürcüstan Respublikasından Azərbaycan Respublikası istiqamətində naməlum şəxslər tərəfindən dövlət sərhədinin pozulması müşahidə edilib.***

Dövlət Sərhəd Xidmətindən "Unikal"a verilən məlumata görə, sərhəd zastavası dərhal "Silaha" komandası ilə qaldırılıb, ərazi qapadılıb və dövlət sərhədini pozmuş 1-i azyaşlı olmaqla, 2 nəfər Azərbaycan vətəndaşları saxlanılıb. Araşdırma zamanı saxlanılan şəxslərin Ağstafa rayonu Poylu Kənd sakini 2003-cü il təvəllüdlü Mirzəyev Aqid Murad oğlu və Yevlax şəhər sakini 2018-ci il təvəllüdlü Bukavadze Şahin Roman oğlu olduğu məlum olunub. Fakt üzrə araşdırma tədbirləri davam etdirilir.

# İsmət Abbasov zavodunu dirçəltməyə başladı

## Keçmiş baş nazirin müəssisəsinə köhnə dostu əncam olub?

***Bir zamanlar ölkənin ən iri müəssisələrindən olan 1 saylı Bakı Şərab zavodu, daha dəqiq desək, "Bakı Şərab -1" ATSC ölkənin spirtli içkilər bazarında hələ də istənilən mövqeyə sahib ola bilməyib. Bununla belə, adıçəkilən zavod 2021-ci ili 129 min 973 manat xalis mənfəət ilə başa vurub. Halbuki, şirkət 2020-ci ili 404 min 284 manat xalis zərər ilə bağlamışdı.***

Rəsmi rəqəmlərə görə, "Bakı Şərab -1"in satışdan gəlirləri 2020-ci ildə 1 milyon 226 min 648 manat ikən, 2021-ci ildə 1 milyon 491 min 409 manata yüksəlib (265 min manat artıb).

Qeyd edək ki, zavoda iki il öncə "Aqrolizinq" ASC-nin sabiq rəhbəri Əli Bayramov təyin olunub. Bayramov həmin vəzifədə ikən ölkənin ən korrupsiyalaşmış məmurlarından biri sayılırdı. Sözügedən zamanda "Aqrolizinq"də yeyintilərlə bağlı iddia və ittihamların ardı-arası kəsilmirdi. Elə bu iddia və ittihamlar da onun sözügedən postdan kənarlaşdırılmasına gətirib çıxardı.



Bundan bir qədər sonra isə Əli Bayramov "Bakı Şərab - 1" ATSC-nin rəhbərliyinə gətirildi.

Belə bir addım gözlənilməz deyildi - adıçəkilən zavod keçmiş kənd təsərrüfatı naziri İsmət Abbasova məxsusdur. Bayramov isə Abbasovun sədaqətli kadrlarından sayılır.

Xatırladaq ki, 2004-2013-cü illərdə kənd təsərrüfatı naziri, 2013-2018-ci illərdə isə baş nazirin müavini işləyən Abbasovun qısa vaxtda böyük sərvətə sahib olması "Aqrolizinq" ASC-nin 2009-cu ildə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyinə verilməsindən sonra başlamışdı. Çünki bu ASC uzun illər boyu korrupsiya, dövlət vəsaitlərinin talandığı əsas qurumlardan birinə çevrilmiş, nəticədə eks-nazir də misilsiz var-dövlətə yiyələnmişdi. Abbasov nazir vəzifəsindən getdikdən sonra isə Hesablama Palatası "Aqrolizinq"də ciddi qanunsuzluqlar aşkarlamış, qurumda büdcə vəsaitlərindən qanunsuz istifadə, büdcə öhdəliklərinin icra edilməməsi, iş həcmlərinin artırılması, borcların uçotdan yayındırılması və digər maliyyə pozuntularına yol verildiyi nəzərə alınaraq, nəzarət tədbiri üzrə yoxlama materialları Baş Prokurorluğa göndərilmişdi. Elə bundan az sonra "Aqrolizinq" ASC-nin ovaxtkı sədri Əli Bayramovun öz ərizəsi ilə işdən getməsi də çox şeydən xəbər verirdi.

Bir sözlə, xeyli öncəyə dayanan yaxın münasibətlər İsmət Abbasovun çox keçmədən Bayramovu yüksək vəzifəyə - 1 saylı Şərab Zavodunun İdarə Heyətinin sədri təyin edirməsi ilə nəticələndi. Yəni eks-nazir öz kadrına sahib çıxmışdı.

Maraq üçün onu da deyək ki, Əli Bayramovun "Aqrolizinq"dəki vəzifəni tərk etməsindən cəmi bir neçə gün sonra Hesablama Palatası "Aqrolizinq" ASC-də dövlət büdcəsindən ayrılan vəsaitlərin talanması ilə bağlı üzə çıxardığı faktları cinayət işinin qaldırılması üçün Baş Prokurorluğa göndərmişdi.

Hesablama Palatasının həmin vaxt yaydığı məlumata görə, "Aqrolizinq" ASC-də büdcə vəsaitlərindən qanunsuz istifadə, büdcə öhdəliklərinin icra edilməməsi, iş həcmlərinin artırılması, borcların uçotdan yayındırılması və digər maliyyə pozuntularına yol verildiyi nəzərə alınaraq nəzarət tədbiri üzrə yoxlama materialları Baş Prokurorluğa təqdim olunmuşdu. Hətta həmin vaxt Ə.Bayramovun istintaqdan yayınmaq üçün Türkiyəyə qaçdığına dair məlumatlar da yayılmışdı.

Hər kəsə məlum idi ki, bu qurumun keçirdiyi tenderlərdə öz maraqlarına uyğun şirkətləri cəlb eləmək, onları qalib elan etmək, onların vasitəsi ilə ölkəyə cins mal-qara, texnika, gübrə və digər məhsullar gətirmək, məhz Əli Bayramovun idarəçiliyi altında baş vermişdi.

Lakin maraqlıdır ki, 100 milyonlarla dollar büdcə vəsaitinin talanması faktlarını araşdıran Zakir Qaralovun idarəsi "Aqrolizinq"in "xırda kalibrli" məmurlarına qarşı cinayət işi qaldırıb, onların bir neçəsini həbs etməklə məsələni ört-basdır edə bildi. Nə Əli Bayramov, nə də onun himayədarı İsmət Abbasova talanan 100 milyonlara görə "gözün üstə qaşın var" deyən olmadı. Köhnə dostlar isə sonradan, yuxarıda da qeyd etdiyimiz kimi, "Bakı şərab - 1"də yenidən birləşdilər. Onların bu zavodu dirçəltmək üçün birgə səylərinin artıq nəticə verməyə başladığı ötən ili mənfəətlə başa vurmasından görünür. Düzdür, mənfəətin məbləği elə də böyük deyil, ancaq belə görünür sabiq kənd təsərrüfatı naziri və keçmiş baş nazir müavini uzun aradan sonra müəssisəni böhrandan çıxara bilib. Bu uğurun davamlı olub-olmayacağını isə zaman göstərəcək...

*Toğrul Əliyev*

# Bakı Nəqliyyat Agentliyi ətrafında indi də 14 milyon manatlıq qalmaqal

## Vüsal Kərimli rəhbərlik etdiyi qurumla bağlı ittihamlar qarşısında susmağa davam edir

***Bakı Nəqliyyat Agentliyi (BNA) ilə bağlı növbəti sensasion iddialar irəli sürülüb.***

Yerli medianın yazdığına görə, qurumun iri məbləğli tenderlərinin əsas qalibi "Techmaster " adlı MMC-dir. Belə ki, 2020-2022-ci illərdə BNA ilə şirkət arasında bağlanmış satınalmış müqavilələrinin toplam maliyyə dəyəri nə az, nə çox, düz 14 348 469.34 AZN təşkil edir (report-orinfo).

Məsələn, 2020-ci ildə BNA ilə şirkət arasında 3 satınalma müqaviləsi imzalanıb. Maliyyə dəyəri 4 509 927.13 AZN təşkil edən müqavilədə yeni işıqfor məntəqələrinin təşkili üçün işıqfor avadanlıqlarının və dirəklərinin alınması, quraşdırılması və sahə avadanlıqlarının, onlara aid köməkçi qurğuların və kommunikasiya xətlərinin 7 /24 saat iş rejimində fasiləsiz və dayanıqlı fəaliyyətini təmin etmək məqsədi ilə onlara texniki dəstək xidmətlərinin satın alınması nəzərdə tutulub.

2022-ci ildə imzalanan və maliyyə dəyəri 3 178 565.64 AZN təşkil edən müqavilədə isə Bakı şəhərində yeni işıqfor məntəqələrinin təşkili üçün işıqfor avadanlıqlarının və dirəklərinin alınması, quraşdırılması və kommunikasiya xətlərinin çəkilməsi işlərinin satın alınması, habelə, mövcud işıqfor məntəqələri üzrə müvafiq işlərin görülməsi, yeraltı kommunikasiya xətlərinin dəyişdirilməsi və yenilənməsi məqsədilə lazım olan mal, iş və

Mövzu ilə bağlı "Unikal"a danışan ekspertlərin fikrincə, BNA-nın adıçəkilən MMC ilə tender münasibətləri bir neçə aspektdən diqqəti çəkir. Əvvəla, 10 manat nizamnamə kapitala malik bir şirkətin qısa vaxtda 14 milyon manatdan artıq dövlət satınalması müsabiqəsinin qalibi olması sual doğurur.

Digər tərəfdən, təcrübə hansısa dövlət qurumunun tenderlərini mütəmadi şəkildə bir şirkətin udması tərəflər arasında qeyri-rəsmi bağlılığı, beləliklə də mənfəət birgəliyini göstərir.

Üçüncüsü, ölkədə BNA-nın yuxarıda bəhs olunan sifarişlərini həyata keçirmək baxımından yetərincə təcrübəli şirkətlər var. Lakin Vüsal Kərimlinin rəhbərlik etdiyi qurumun bir qayda olaraq




kommunikasiya xətlərinin çəkilməsi işləri, maliyyə dəyəri 1 799 835.12 AZN təşkil edən müqavilədə sahə avadanlıqlarının tam gücü ilə işləməsi üçün mövcud struktur və sistemlərə 12 aylıq texniki xidmətin, maliyyə dəyəri 2 069 545.29 AZN təşkil edən müqavilədə isə işıqfor məntəqələri və həmin məntəqələr üzrə müvafiq işlərin görülməsi, avadanlıqların və mal-materialların daimi olaraq işlək vəziyyətdə saxlanılması üçün aylıq texniki xidmətin göstərilməsi, habelə mövcud işıqfor məntəqələrinin yeraltı kommunikasiya xətlərinin dəyişdirilməsi və yenilənməsi işlərinin görülməsi məqsədilə mal, iş və xidmətlərin satın alınması nəzərdə tutulub.

Beləliklə, bir ildə BNA-dan "Techmaster" MMC-yə 8 379 307.54 AZN vəsait yönəldilib.

2021-ci ildə isə BNA ilə şirkət arasında maliyyə dəyəri 2 790 596.16 AZN təşkil edən satınalma müqaviləsi imzalanıb. Müqavilədə Bakı şəhərinin küçə və prospektlərində quraşdırılmış xidmətlərin satın alınması nəzərdə tutulur.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə "Techmaster" MMC 31 mart 2016-cı ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 10 AZN olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Sabunçu rayonu, Zabrat qəsəbəsi, E. Məhərrəmli (Südçülük sovxozu), ev 2-də yerləşir. MMC-nin qanuni təmsilçisi Həsənov Sərdar Əbülfət oğludur.

Sərdar Həsənov barəsində açıq mənbələrdə hər hansı məlumat yoxdur.

"Techmaster" MMC-yə gəlincə, şirkətin əsas fəaliyyət sahəsi müxtəlif növ yerüstü və yeraltı kabel kommunikasiya işlərinin həyata keçirilməsi, elektron mühəndis avadanlıqlarının təchizatı və mütəmadi texniki qulluğundan ibarətdir.

Şirkət 2020-ci ildən isə dekorativ yaşıl hasarların istehsalına başlayıb. Şirkətin veb-səhifəsi (www.techmaster.ariz.az ) isə fəaliyyət göstərmir.

"Techmaster" MMC ilə əməkdaşlığı şübhələr yaratmaya bilməz.

Nəhayət, son zamanlar BNA ətrafında kifayət qədər yüksək məbləğlərin ifadə edildiyi qalmaqallı xəbərlərin ardı-arası kəsilmir. Ancaq maraqlısı odur ki, Agentlik həmin xəbərlər qarşısında susqunluq nümayiş etdirməyə üstünlük verir. Bu isə ortaya atılan çeşidli iddia və ittihamlarda həqiqət payının yüksək olmasına dair ehtimalları qüvvətləndirir. Ən azı ona görə ki, cəmiyyətdə susmağın razılıq əlaməti olduğuna dair möhkəmlənmiş qənaət hakimdir.

Ümid edək ki, BNA ən azı yuxarıda bəhs olunan və ümumi dəyəri 14 milyon manatdan çox olan tenderlər barədə yerli mediada yazılanlara həssaslıq nümayiş etdirəcək, həmin tenderlərlə bağlı yaranan suallara cavab verəcək, şübhələrə aydınlıq gətirəcək...

***Sənan Mirzə***



# Vətən Müharibəsi Qəhrəmanı: "10 saniyə sonra mənim çıxdığım yeri RPG qumbaraatanla vurdular"

***"Füzulinin bir çox kəndini azad etsək də, rayonun özünə girmədik, əks tərəfdən iki gün palçıqlı sahələrlə yol qət edərək Cəbrayıla yollandıq. Burada da Silahlı Qüvvələrimiz düşməni darmadağın edərək qaçmağa məcbur etdi. Cəbrayıl rayonunun girişinə bayrağımızı sancdıq. Bir gün rayonun mühafizəsini saxladıq və digər korpusa təhvil verəndən sonra yenidən ikigünlük təxliyəyə qayıtdıq".***

"Unikal" xəbər verir ki, bu barədə Xüsusi Təyinatlı Qüvvələrin "N" saylı hərbi hissəsinin əsgəri olmuş Yaqubov Vüsal "Azərbaycan" qəzetinə müsahibəsində danışıb. O bildirib ki, Cəbrayıl rayonundan sonra istiqamət Qubadlı və Zəngilan rayonlarının ərazisinə olsa da, əmrə əsasən birbaşa Şuşaya doğru gedildi.

"Buna görə Füzuliyə doğru gedib rayonun mərkəzinə hərəkət etdik. Burada şəhidlərimiz və yaralılarımız oldu, hətta əsir düşə biləcəyimiz anları da yaşadıq. Amma 14 gün Füzuli uğrunda ölüm-dirim savaşı apararaq, nəhayət, rayonun mərkəzini tam azad etdik. Bundan sonra Xocavənd rayonuna doğru istiqamət aldıq. Həyatımda heç zaman yadımdan çıxmayacaq, ölümün bir addımlığında olduğum və bəlkə də bir döyüşçü kimi taleyimi dəyişdirən savaş səhnəsi ilə Xocalının Sığnaq kəndində qarşılaşdım. Həmin kənddə durduğum mövqenin arxasında döyüşçülərimiz düşmənlə atışırdılar, mən də yolun mühafizəsində idim.

Birdən əsgər yoldaşım dedi ki, Yaqubov, bizim formada şəxsi heyət gəlir. Dedim, ola bilsin ki, bizə kömək gəlir. Sonra isə düşündüm ki, bizə kömək gecə saat 1-də gəlib çatacaq, indi isə haradasa saat 17-18 radələridir. Amma yenə də öz-özümə dedim, get bax.

Bu zaman başımı sağa çevirəndə gördüm ki, palçıqlı, ağrəngli bir "Pikap" meşənin içərisindən yola çıxır, maşının arxasında da iriçaplı pulemyot var. Aramızda 40 metr məsafə olardı. Arxadan baxanda üzərindəki döyüşçünün kaskası bizim Milli Ordunun kaskasına oxşayırdı. Bir anlıq tərəddüd etdim ki, birdən öz döyüşçümüz olar, vuraram, Vətən xaini olaram, yaxud da vurmaram, şəxsi heyətimizi qırar. Aramızdakı məsafə bir az da azalanda o məni gördü və dərhal gözünü nişangaha qoydu ki, vursun. Mən bir-iki saniyə ondan cəld davranaraq pulemyotla onun alnından vurdum. Başı pulemyotun üzərinə əyildi, sadəcə, əli tətikdə olduğu üçün güllələr gəlib böyrümə mövqe üçün qoyduğum dəmirə dəydi, amma qəlpələri məni də tutdu. Buna baxmayaraq, silahı susdurmadım, atış vəziyyətində saxladım, maşının içərisindəkilərə də xəsarət yetirdim. Daha sonra əl qumbarasını çəkib maşının arxasına atdım və bundan istifadə edib yerdəyişmə etdim. 10 saniyə sonra onlar mənim çıxdığım yeri RPG qumbaraatanla vurdular.

Sonra bildik ki, mən vuran "Pikap"dan əlavə daha bir "Pikap" da var imiş, onların arxasında isə 11 nəfər şəxsi heyət - hamısı da xüsusi təyinatlılar. Mən birinci maşındakıları vurandan sonra digərləri qorxaraq dərəyə düşmüş və oradakı taqımımızla atışmışdılar.

Həmin vaxt düşmənin xüsusi təyinatlı alayının 20-yə yaxın döyüşçüsü ilə təkbaşına döyüşdüyümə görə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüm".

Qeyd edək ki, Yaqubov Vüsal 2001-ci il martın 2-də Bakının Əhmədli qəsəbəsində anadan olub. Əslən Qubadlı rayonunun Yusifbəyli kəndindəndir. 2007-2018-ci illərdə Sumqayıt şəhərindəki 37 nömrəli tam orta məktəbdə təhsil alıb. Göyçay Rayon İdarəetmə və Texnologiya Kollecində nəqliyyat vasitələrinin təmiri və servisi ixtisasında 6 ay oxuduqdan sonra təhsilini dondu-raraq 1 aprel 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə yollanıb.

Hərbi xidmətə "N" saylı hərbi hissədə başlayıb, daha sonra Xüsusi Təyinatlı Qüvvələrin "N" saylı hərbi hissəsində xidmətini davam etdirib. Hərbi xidmətdən tərxis müddətinə 4 gün qalmış İkinci Qarabağ müharibəsi başlayıb və o, Xüsusi Təyinatlı Qüvvələrin əsgəri kimi Cəbrayılın, Füzulinin, Xocavəndin, Kəlbəcərin, Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Vətən Müharibəsi Qəhrəmanıdır. "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

# Penitensiar xidmətlə DİN birgə əməliyyat keçirdi




***Penitensiar xidmətlə Daxili İşlər Nazirliyi birgə əməliyyat keçirib.***

"Unikal" xəbər verir ki, Ədliyyə Nazirliyi Penitensiar xidmətinin əməliyyat aparatının və Daxili İşlər Nazirliyi Balakən rayon Polis şöbəsinin əməkdaşları tərəfindən birgə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Şəki Penitensiar Müəssisəsində saxlanılan məhkum İbrahim Nəsrəddin oğlu Muqumov məxsus olan və onun tərəfindən həbs olunmamışdan əvvəl Balakən rayonu Qullar kəndində yerləşən evinin həyətində torpağa basdıraraq gizlətdiyi "AKS-74" markalı avtomat silah aşkar edilərək götürülmüşdür.

Faktla bağlı araşdırma aparılır.

# Bakıda "Şimal" Elektrik Stansiyası üçün estakada və nasos stansiyaları tikilir



***"Şimal" Elektrik Stansiyasını yaxın perspektivdə dayanmaq təhlükəsindən çıxarmaq, onu xilas etmək üçün təxirəsalınmaz şəkildə Xəzər dənizinin içərisinə doğru soyuq suyu 8 metr dərinlikdən götürülməsinə imkan verən 540 metr uzunluqda estakadanın və 2 yerdə su nasos stansiyalarının tikintisinə başlanılıb.***

Bunu "Unikal"a "Azərenerji" ASC-nin ictimaiyyətlə əlaqələr və media mərkəzinin rəisi Teymur Abdullayev bildirib. "Xəzər dənizində son 20 ildə suyun səviyyəsinin 2 metrə yaxın aşağı düşməsi ölkənin 2-ci böyük elektrik stansiyası olan, Bakının ərazisinin 40 %-dən artıq hissəsini elektrik enerjisi ilə təchiz edən, paytaxtın Şüvəlan qəsəbəsində yerləşən "Şimal" Elektrik Stansiyasının fəaliyyətinə ciddi təhlükə yaradıb. Nəzərə alınsa ki, su səviyyəsinin günü-gündən aşağı düşməsi stansiyaya soyutma suyunun götürülməsində ciddi problem yaradırdı, o zaman ən böyük həcmdə enerji istehsal edən və ümumi gücü 800 meqavat olan "Şimal-1" və "Şimal-2" Elektrik Stansiyalarının yaxın perspektivdə fəaliyyətini tamamilə dayandırması qaçılmaz olacaqdı. Yeni estakada və su nasos stansiyalarının tikilməsi isə nəinki stansiyaları xilas edəcək, üstəlik daha dərinlikdən götürüldüyünə görə soyutma suyu 2,6 dərəcə aşağı tempraturda olacaq", - deyə o, qeyd edib."Yeni estakada üzərində hər iki tərəfdən ümumilikdə 4 boru çəkiləcək və 2 nasos stansiyasında 8 nasos fəaliyyət göstərəcək. Estakadanın tikinti prosesi növbəli iş prinsipi əsasında aparılır. Xəzər dənizində su səviyyəsinin düşməsinə görə yeni estakada və su nasos srtansiyasının tikilməsi "Şimal" Elektrik Stansiyasından əvvəl "Sumqayıt" Elektrik Stansiyasında uğurla həyata keçirilib, öz müsbət nəticəsini verib. "Şimal" Elektrik Stansiyasının yeni suqəbuledici kompleksinin tikintisini də xarici şirkətlər deyil, yerli şirkət həyata keçirir. Layihənin icrasının gələn il başa çatdırılması nəzərdə tutulur", - deyə "Azərenerji" rəsmisi əlavə edib.

# İcra başçısı onu işdən çıxardı

***Gədəbəy Rayon İcra Hakimiyyətinin Memarlıq və tikinti şöbəsinin müdiri - baş memar Vidadi Ələkbərov vəzifəsindən azad edilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bununla bağlı icra başçısı Orxan Mürsəlov əmr imzalayıb. Başçının digər əmri ilə, Vidadi Ələkbərov Slavyanka kəndinə icra nümayəndəsi təyinat alıb.

Qeyd edək ki, Orxan Mürsəlov avqust ayının 11-də Gədəbəyə icra başçısı təyin olunub.

***Murad İbrahimli***

# Məktəbdə azyaşlılar zorlandı

***"Gün ərzində iki dənə məktəbdə azyaşlı oğlanların yuxarı sinif şagirdləri tərəfindən zorlanması xəbərini almışam".***

"Unikal" xəbər verir ki, bu barədə vəkil Aqil Layıc məlumat paylaşıb. O bildirib ki, bəziləri hədə-qorxu ilə buna məruz qalıb.

"Ciddi mənada bu problemlərlə məşğul səlahiyyətli şəxslərə ehtiyac var. Məktəblərdə uşaqlarla fərdi söhbət aparacaq və uşaqların güvənini qazanan bir səlahiyyətli şəxs olsa, bu məsələlərdə prenvetiv addım olar". Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev isə bildirib ki, məsələ nəzarətə götürülüb, araşdırılır, zəruri tədbirlərin görülməsi təmin olunacaqdır.

***Seymur Əli***

# Dövlət Məşğulluq Agentliyinə ittihamlar səngimir

## Özünüməşğulluq proqramı çərçivəsində verilən yaşlı və xəstə mal-qara şikayətləri qalmaqal yaratmaqda davam edir

***Özünüməşğulluq proqramı çərçivəsində heyvandarlıqla məşğul olmaq üçün müraciət edən daha bir vətəndaşın şikayəti yayılıb. Belə ki, Sumqayıt şəhər Məşğulluq idarəsinə üz tutan Əhliman Əliyevə 3 inək verilib.***

Lakin vətəndaşın dediklərindən aydınlaşan odur ki, ona inəklərin ayda 600 litr süd verəcəyi və nəticədə 600-700 manat gəlir əldə edə biləcəyi vəd edilsə də, əslində verilən heyvanların yaşlı və xəstə olduğu ortaya çıxıb.

"Mən bir il müddətinə bu heyvana 1000 manat xərc çəksəm, biri hardasa günə 3 manatlıq ot yeyir. Bu, aya hardasa 90 manat edir.... Bir ilə də vuranda təxminən 900-1000 manatdan yuxarı pul edir. Lap olsun 500 manat. Bunun heç 500 manat qiyməti yoxdur" - o deyib.

Qeyd edək ki, bu, Dövlət Məşğulluq Agentliyinin xətti ilə həyata keçirilən özünüməşğulluq proqramı ilə bağlı saysız-hesabsız şikayətlərdən biridir. Son vaxtlar oxşar şikayətlərin hədsiz artdığı müşahidə edilir. Sözügedən proqramdan faydalanmaq istəyənlərin çoxu quruma etdikləri müraciətdən peşmanlıqlarını dilə gətirirlər. Belə ki, bir çoxları onlara verilən heyvanların yaşlı, xəstə arıq olmasından şikayətlənir, bəziləri isə müraciətlərinə müsbət cavab almaq üçün rüşvət istənilməsindən gileylənirlər. İnternet üzərindən kiçik bir axtarış apardıqda sözügedən mövzu ilə bağlı qarşımıza kifayət qədər məlumat çıxır. Elə bir neçə ay öncə Ucar sakinlərindən biri KİV-ə ünvanladığı müraciətində Dövlət Məşğulluq Agentliyinin 19 saylı Ərazi Məşğulluq Mərkəzi Filialının müdiri Samir Nuriyevin fəaliyyətindən şikayətçi olmuşdu. Sitat: "Mən şikayət ərizəsi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edib, 2019-cu il tarixdən özünüməşğulluq proqramına qeydiyyata alındığımı bildirmişdim. Həmin ildən qeydiyyata alınsam da indiyə qədər aktivlə təmin olunmadığımı, məndən çox sonra qeydiyyata alınanların isə aktivlərlə təmin olunduqlarını göstərmişdim. Bundan sonra Dövlət Məşğulluq Agentliyinin 19 saylı Ərazi Məşğulluq Mərkəzi Filialının müdiri Samir Nuriyev mənə qanunsuz olaraq imtina məktubu göndərib. İmtina məktubunda qeyd edilib: "26 avqust 2021-ci il tarixdə filialın əməkdaşları tərəfindən yaşadığınız ünvana baxış keçirilərkən təsərrüfatınızda heyvanların saxlanılmasını sübut edən izlər aşkar olunmuşdur"... Məktubda göstərilən səbəb saxtadır və bunu istər qonşuları, istərsə də kənd icra nümayəndəliyi təsdiqləyə bilər... Sadəcə, kim məşğulluq proqramına qoşulub tez bir zamanda aktivlə təmin olunmaq istəyirsə, rüşvət verməlidir. Tanıdığım Ucar rayon sakinləri var ki, təsərrüfatında bir neçə baş iri buynuzlu heyvanların olmasına baxmayaraq, onlara özünüməşğulluq proqramı əsasında iribuynuzlu heyvanlar verilib. Nazirlik səviyyəsində yerindəcə yoxlama aparılarsa, bu faktları göstərəcəyəm".



Bu cür çoxsaylı şikayətlərdən, narazılıqlardan sonra mövzu zaman-zaman millət vəkillərinin də gündəminə gəlib. Məsələn, vaxtilə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin keçirilən iclasında deputat Musa Quliyev demişdi ki, özünəməşğulluq proqramı çərçivəsində vətəndaşlara verilən heyvanlarla bağlı narazılıqlar var: "Mətbuatda da bu barədə məlumatlar dərc olunur. Sosial şəbəkələrdə də qoca, arıq heyvanların fotolarını görürük. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu məsələ ilə bağlı operativ iş görməlidir. Nöqsanlar aradan qaldırılmalıdır. Bu layihə uğurla həyata keçirilməlidir və buna kölgə salınmamalıdır".

Onu da deyək ki, sözügedən layihə çərçivəsində on milyonlarla manat xərclənir. Məsələn, bu ilin aprelində Dövlət Məşğulluq Agentliyi özünüməşğulluq layihəsi çərçivəsində ev heyvanlarının satın alınması ilə bağlı elan etdiyi açıq tenderə yekun vurulmuşdu. Dövlət satınalmalarının vahid internet portalındakı məlumatdan aydınlaşır ki, həmin tenderin qalibi "Agro Best" və "Az Nest" QSC-lərdən ibarət konsorsiumdur. Qalib konsorsiuma 65,988 milyon manat ödəniləcək.

Lakin təəssüf doğuran haldır ki, dövlətin vətəndaşlara iş yerləri, gəlir qaynaqları yaratmaq üçün başlatdığı, bu məqsədlə böyük vəsaitlər ayırdığı çox önəmli, təqdirəlayiq proqramın icrasında ciddi çatışmazlıqlar var. Hərçənd, nə Dövlət Məşğulluq Agentliyi, nə də bu qurumun tabe olduğu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bəhs olunan çatışmazlıqları qəbul eləmək istəmir, proqramın icrası ilə bağlı tənqidləri, iradları rədd edir. Nəticədə, yol verilən qüsurların aradan qaldırılması əvəzinə yeni şikayətlərin ortaya çıxmasının şahidi oluruq.

Ümid edək ki, həm adıçəkilən nazirlik, həm də onun tabeliyindəki müvafiq agentlik özünüməşğulluq proqramı ilə bağlı narazılıqlara biryolluq son qoymaq üçün axır ki, hərəkətə keçəcək...

***Toğrul Əliyev***

**6.3.11. regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi;**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Qarabağ iqtisadi zonasının sosial-iqtisadi inkişafı prioritetdir

## Vahid Məhərrəmov: “Qarabağda torpaq münbit olduğundan məhsuldarlıq da yüksək olub, ona görə də, heyvandarlıqla yanaşı, əkinçiliyin dirçəldilməsi, əkin torpaqlarının minalardan təmizlənməsi də vacibdir”

***Regionların iqtisadi inkişafında Qarabağ iqtisadi zonasının inkişafı əsas yer tutur. Artıq Qarabağda müxtəlif sahələrin inkişafı üçün dövlət tərəfindən güzəştlərin tətbiq edilməsi də nəzərdə tutulur.***

Dünən Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) sədri Seymur Mövlayev mətbuata açıqlamasında bildirib ki, Qarabağ zonası üçün Kənd Təsərrüfatı Nazirliyi tərəfindən xüsusi əlavə dəstək paketinin hazırlanması planlaşdırılır. O, bildirib ki, bu, dövlətin müəyyən etdiyi strateji xəttə uyğun olaraq nəzərdə tutulub. S. Mövlayev onu da əlavə edib ki, nazirlik gələcəkdə mövcud imkanlar çərçivəsində Qarabağ iqtisadi zonalarında kənd təsərrüfatının inkişafına dəstək verməyə hazırdır. Sədr əlavə edib ki, Qarabağda heyvandarlıq sahəsində biznes üçün subsidiyalar nəzərdə tutulub. Həmçinin yaxın vaxtlarda işğaldan azad edilmiş ərazilərdə bir və yaxud bir neçə aqroparkın yaradılması ilə bağlı sahibkarlıq subyektləri ilə danışıqlara başlaya bilər.

Bərəkətli torpağı, iqtisadi və coğrafi nöqteyi-nəzərdən əlverişli potensiala malik Qarabağ zonasının sosial və iqtisadi baxımdan dirçəldilməsi prioritetdir. Ekspertlər də hesab edir ki, Qarabağ iqtisadi zonasında əksər sahələrin inkişafına münbit şərait var.

Kənd təsərrüfatı üzrə ekspert Vahid Məhərrəmov “Unikal”a açıqlamasında bildirib ki, Qarabağ iqtisadi zonasının sosial-iqtisadi inkişafı üçün ayrıca dövlət proqramı qəbul edilməlidir. Çünki, torpaqlarımızın 30 ilə yaxın işğal dövründə Qarabağ iqtisadi zonası üzrə rayonların bütün infrastrukturu, emal müəssisələri dağıdılıb. V. Məhərrəmov söyləyir ki, Qarabağ iqtisadi zonasında kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirilməlidir. Amma ekspert deyir ki, bundan öncə problemlər araşdırılmalıdır: “Qarabağ iqtisadi zonası, xüsusilə dağlıq ərazilər heyvandalığın inkişafı üçün əlverişlidir. Amma bu o demək deyil ki, digər regionlarda heyvandarlığın inkişafı üçün tətbiq edilən tədbirlər burada da effekt verə bilər. Ölkəmizə xeyli sayda bahalı cins iribuynuzlu heyvanlar gətirildi. Amma nə ət, nə də ki, süd məhsullarının istehsalında ciddi artım müşahidə olundu. Heyvanların cins tərkibini yaxşılaşdıra bilmədik. Avropadan alınan mal qara bu baxımdan effekt vermədi. Hazırda ölkəmizdə həm süd, həm də ət məhsullarının qiymətində ciddi artım var. Ona görə də, bu yanlışlıqlar yenidən təkrarlanmamalıdır”.



V. Məhərrəmov bildirir ki, Qarabağda torpaq münbit olduğundan məhsuldarlıq da yüksək olub. Ona görə də, heyvandarlıqla yanaşı Qarabağda əkinçiliyin dirçəldilməsi, əkin torpaqlarının minalardan təmizlənməsi də vacibdir.

V. Məhərrəmovun fikrincə, problemlər aradan qaldırılarsa, Qarabağ iqtisadi zonasında bir çox sahələr üzrə iqtisadi inkişafın təşviq edilməsi səmərə verəcək: “Düşmən suvarma sistemlərini, bağları qıraraq məhv edib. Emal müəssisələrimiz tamamilə dağıdılıb. Əgər təşviqedici proqramlar olarsa Qarabağa investisiya qoyan sahibkarların da sayı artar. Fermerlər daha çox maraqlı olar”.

Bundan əlavə ekspert deyir ki, Qarabağda məhsuldarlığın keyfiyyəti də diqqətdə saxlanılmalıdır.

Qeyd edək ki, dövlət başçısının çıxışları da Qarabağ iqtisadi zonasının sosial-iqtisadi inkişafı ilə bağlı böyük ümidlər yaradır. O, öz çıxışlarında dəfələrlə vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası təmin ediləcək. Nəticədə bu ərazilərə yüksək texnoloji tutumlu investisiyaların cəlbi nəticəsində ixracyönümlü dəyər zənciri qurulacaq və dayanıqlı iş yerləri yaradılacaq. Regionda dairəvi iqtisadiyyata əsaslanan ”ağıllı” biznes modelləri yaradılacaq. Faydalı qazıntı və mineral xammal mənbələri nəzərə alınmaqla iqtisadi fəaliyyətdə dəyər zənciri üzrə ixtisaslaşma təşviq ediləcək. Mədənçıxarma sahəsində təbii ehtiyatlar dövlət?özəl tərəfdaşlığı çərçivəsində dövriyyəyə cəlb olunacaq. Rəqabətqabiliyyətli, qabaqcıl infrastrukturla təmin edilmiş aqrar istehsal və aqrar emal formalaşdırılacaqdır. Qarabağ bölgəsi turizm biznesi üçün cəlbedici, turistlər üçün əlçatan, unikal, keyfiyyətli və rəqabətli turizm xidmətləri təklif edən turizm destinasiyası olacaq.

İlkin mərhələdə, bərpa və quruculuq prosesinə paralel olaraq özəl layihələr dəstəklənməklə ticarət ,xidmət-logistika mərkəzləri şəklində iqtisadi zonaların, müasir istehsal infrastrukturu olan sənaye parkları və məhəllələrin yaradılması istiqamətində işlər görüləcək.

İqtisadiyyatın sürətli bərpası və dayanıqlı inkişafı, o cümlədən rəqabətli istehsal və emal sahələrinin fəaliyyəti müasir infrastrukturla dəstəklənəcək, prioritet sahələrdə sahibkarlara geniş çeşidli stimullar veriləcək, vergi-gömrük azadolmaları və güzəştli maliyyələşmə alətləri geniş tətbiq olunacaq, kreditlərin və investisiyaların sığortalanması mexanizmi yaradılacaqdır. Ekoloji təmiz və iqtisadi cəhətdən səmərəli bərpa olunan enerji mənbələrindən istifadə genişləndirilməklə ”yaşıl enerji zonası” konsepsiyası tətbiq ediləcək. Nəticədə, ümumi məhsul buraxılışında, ixracda və məşğulluqda işğaldan azad edilmiş ərazilərin payı davamlı artacaq. İşğaldan azad edilmiş ərazilərin bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyası əsasında bu regiona böyük qayıdış təmin ediləcək. Çünki, zəfərdən sonra ölkəmiz işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa və quruculuq işləri aparır.

*Gülayə Mecid*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyası toplandı

***2022-ci il oktyabrın 19-da Azərbaycan Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib.***

“Unikal” xəbər verir ki, Azərbaycan Mətbuat Şurasının sədr müavini, komissiya sədri Vüqar Zifəroğlu gündəlikdəki məsələlər barədə məlumat verib.

İclasda ümumən müxtəlif media orqanlarında yayımlanmış materiallarla bağlı altı şikayətə baxılıb. Şuranın Katibliyi tərəfindən şikayətçi və cavabdeh media orqanları ilə aparılmış söhbətlər, tərəflərin diqqətinə çatdırılmış anlaşma təklifləri və buna onların münasibətləri nəzərdən keçirilib, mövcud istiqamətdə fikir mübadiləsi aparılıb.

Müzakirələrdən sonra müvafiq rəylər çıxarılıb. Rəylərdə əsasən KİV-lərə qarşı tərəfin mövqeyinin işıqlandırılmasına sayğılı yanaşmaq, ona öz fikirlərini çatdırmaq üçün şərait yaratmaq tövsiyə edilib.

Komissiyanın müxtəlif məsələlərlə bağlı rəylərində həmçinin şikayətçi tərəfə aidiyyatı üzrə müraciət ünvanlamaq tövsiyəsi də yer alıb.

Qeyd edək ki, prosedur qaydalara uyğun olaraq, bütün şikayətlər MŞ-nin İdarə Heyətində də müzakirəyə çıxarılacaq, onlarla əlaqədar yekun qərarlar İH tərəfindən qəbul ediləcəkdir.

# Qarabağdakı Türk əsgərlərin mandatı müzakirə edilir

***Türkiyə əsgərinin Azərbaycanda mandatının uzadılması ilə bağlı prezident memorandumu Türkiyə Böyük Millət Məclisinə təqdim edilib.***



”Unikal” xəbər verir ki, Türkiyə Böyük Millət Məclisinin Rəyasət Heyətinə təqdim olunan memorandumda Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə yaranmış yeni vəziyyət nəticəsində üçtərəfli bəyannaməyə görə, regionda sabitliyin qorunması istiqamətində nəzərdə tutulan fəaliyyətlər davam etdirilir.

Türkiyənin Rusiya ilə birlikdə qurduğu Ortaq Mərkəzin fəaliyyətini davam etdirdiyini, Ortaq Mərkəzin bölgənin təhlükəsizliyinə və tərəflər arasında etimadın qurulmasına töhfə verdiyini vurğulayaraq, sözügedən missiyanın davam etdirilməsi üçün Türkiyə Silahlı Qüvvələrinin icazə müddətinin 17 noyabr 2022-ci il tarixindən etibarən bir il uzadılması tələb olunub.

*Ağarza Elçinoğlu*



# "Cəngəlliksayağı məskunlaşmanın qarşısı alınmalıdır"

***Ekspert tıxacın səbəbini açıqladı: "Həmin ərazilərdə normal məktəblər tikilməli, müasir mobilliyə hesablanan infrastruktur yaradılmasına başlanılmalıdır"***

"Bakıda tıxacların çoxlu səbəbləri var. Bunların hər biri barəsində çox danışılır. Səbəblərdən bəzilərinin bilavasitə nəqliyyatla bağlılığı ilk baxışdan görünmür, amma əslində onlar da sözün geniş mənasında yol-nəqliyyat infrastrukturuna bağlıdır".

"Unikal" xəbər verir ki, bunu nəqliyyat üzrə ekspert Ərşad Hüseynov deyib. O bildirib ki, bunlardan bir qrupu məskunlaşmadan, şəhərsalmadan irəli gələn səbəblərdir:

"Şəhərin daxili hissələrinin son illər ciddi sıxlaşdırıldığı, bəzi məhəllələrin beton cəngəlliyə çevrildiyi göz qabağındadır. Şəhər ətrafında, təxminən 20-25 il əvvələdək boş olan ərazilərdə isə cəngəlliksayağı, plansız məskunlaşma göz qabağındadır. Heç bir mobillik planı, yol-nəqliyyat infrastrukturunun indiki və perspektiv vəziyyəti nəzərə alınmadan aparılan belə məskunlaşma səbəbindən insanlar elementar gündəlik ehtiyacları (işləmək, uşağı bağçaya və məktəbə aparmaq, normal alış-veriş etmək və s.) üçün kifayət qədər uzaq məsafəyə getməyə məcburdurlar. Üstəlik həmin məskunlaşma zonalarında normal küçə-yol şəbəkəsi də saxlanılmayıb. İctimai nəqliyyata əlçatımlıq da ki, bərbaddır. Nəticədə qaçılmaz tıxaclar yaranır".

Ekspert qeyd edib ki, problemin bariz bir misalını Milli Məclisin son iclasında deputat Rauf Əliyev dilə gətirib: "Onun dediklərinə əsasən, Binə qəsəbəsində 149 saylı məktəb 1350 şagird yerlik olsa da, orada 4483 şagird var, Buzovnadakı 26 saylı məktəb isə 2300 şagird yerlik olsa da, faktiki şagird sayı 4230-dur. Yəni məktəb çatışmazlığı var. Oxşar, bəlkə də daha betər vəziyyət Abşeron aqlomerasiyasının bütün yeni məskunlaşma ərazilərində - Xırdalanda, Masazırda, Hövsanda, Binəqədidə və s.-də var. Bunun nəticəsində on minlərlə şagird həmin yaşayış məntəqələrindən şəhər daxilindəki məktəblərə gətirilir. Yeni məskunlaşma ərazilərində mövcud olan az sayda məktəblərin təlim-tədris prosesinin bəyənilməməsi səbəbindən xeyli valideynin şəhər məktəblərinə üstünlük verməsi bu işi bir az da ağırlaşdırır. Nəticədə şəhər girişlərində və xeyli küçələrdə tixac yaranır. Tətil vaxtı həmin yerlərdə tıxacın olmaması, yaxud daha dözülən olması bunu aşkar təsdiq edir. Məsələnin həlli üçün ən azı bundan sonra belə cəngəlliksayağı məskunlaşma və sıxlaşmanın qarşısı alınmalıdır. Həmin ərazilərdə normal məktəblər tikilməli, müasir mobilliyə hesablanan infrastruktur yaradılmasına başlanılmalıdır".

***Seymur Əli***

# Müharibənin 24-cü günü - 2 il öncə verilən şad xəbər

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.***



"Unikal" Vətən müharibəsinin xronikasını təqdim edir.

Müharibənin 24-cü günü

- Zəngilan şəhəri və rayonun 6 kəndi, Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının 18 kəndi işğaldan azad olunub. Prezident İlham Əliyev bununla bağlı xalqa müraciət edib.

- Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı rəsmi instaqram səhifəsində paylaşım edib.

- Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 "Qrad" YARS qurğusu, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilib. Ordumuzun artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub. Alayın 1-ci motoatıcı taborunun şəxsi heyəti və döyüş texnikası tamamilə sıradan çıxarılıb, 2-ci motoatıcı alayın müdafiə sahəsində düşmənin bir bölməsi döyüş mövqelərini tərk edərək geri çəkilib. Füzuli rayonu istiqamətində əks-hücuma keçən düşmən bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində darmadağın edilib.

- Müdafiə Nazirliyi Azərbaycan Ordusunun artilleriya bölmələrinin Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinə zərbələr endirməsi ilə bağlı videogörüntülər təqdim edib.

- Zəngilan şəhərində Azərbaycanın dövlət bayrağı ucaldılıb.

- Gəncə istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

- Müdafiə Nazirliyinin məlumatına əsasən, cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində itirdiyi mövqeləri bərpa etməyə cəhd edən düşmənə qarşı uğurlu əməliyyatlar aparılıb. Ümumilikdə düşmənin xeyli sayda canlı qüvvəsi, döyüş və avtomobil texnikası, artilleriya və zenit-raket qurğuları, silah və döyüş sursatları, əməliyyat-taktiki və ballistik raket qurğuları, yaylım atəşli, radioelektron mübarizə və tank əleyhinə vasitələri, o cümlədən S-300 tipli zenit-raket kompleksləri məhv edilib. Xeyli sayda silah-sursat, tank və artilleriya qurğuları ələ keçirilib.

- Ermənistan silahlı qüvvələrinə məxsus növbəti PUA Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən Goranboy rayonunun Tapqaraqoyunlu kəndi üzərində məhv edilib.

- Qubadlı istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun artilleriya atəşləri nəticəsində Ermənistan silahlı qüvvələrinin bölmələrinin məhv edilməsinin videogörüntüsü yayımlanıb.

- Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 20-si saat 12:00-dək 61 mülki şəxs həlak olub, 291 nəfər xəsarət alıb, 1941 ev, 90 çoxmənzilli yaşayış binası və 382 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

# "Maşınım minaya düşdü, yaralandım" - Tehran Mənsimov

***Xüsusi təyinatlı qüvvələrin hərbi qulluqçusu, polkovnik Tehran Mənsimov 44 günlük Vətən müharibəsində keçdiyi döyüş yolundan danışıb.***



"Unikal" xəbər verir ki, Tehran Mənsimov "Azərbaycan" qəzetinə müsahibəsində deyib ki, o, müharibə zamanı Cəbrayıla gələrək müvəqqəti komanda məntəqəsində general-leytenant Kərim Vəliyevlə (hazırda general-polkovnik rütbəsi ilə müdafiə nazirinin birinci müavini, Baş qərargah rəisi vəzifəsindədir) görüşüb.

"Qeyd edim ki, təcrübəli hərbçi-döyüşçü, bizim dillə desək, səngər generalı olan Kərim Vəliyevin bu istiqamətdəki hərbi əməliyyatları peşəkarlıqla koordinasiya etməsi döyüşlərin uğurlu gedişinə mühüm töhfə verirdi. Döyüşlərin gərgin mərhələlərinin getdiyi Xocavənd rayonunun icra hakimiyyətinin başçısı, I Qarabağ müharibəsində könüllü özünümüdafiə dəstələrinin komandiri olmuş Eyvaz Hüseynovun da iştirak etdiyi görüşdə əməliyyat şəraitini, döyüş tapşırıqlarını dəqiqləşdirdik, geniş məsləhətləşmə keçirdik. Hərbi komandanlığın yeni qərarlarını söyləyən Kərim Vəliyev qarşıdakı strateji hədəflər barədə məxfi məlumatları diqqətimə çatdırdı. Kərim Vəliyev Ali Baş Komandanın hazırlayıb təsdiq etdiyi Şuşa əməliyyatı barədə vacib məqamları dedi və ordu rəhbərliyinin tapşırıqları haqda məlumat verdi. Mənə artıq hər şey məlum idi", - deyə Tehran Mənsimov deyib.

O əlavə edib ki, sonra Horadizə gedərək Naxçıvandan gələn 160 nəfərlik yeni heyəti qarşılayıb.

"Əmr gəldi ki, oktyabrın 21-də Füzulinin Qarğabazar kəndi istiqamətinə hərəkət etməliyik, növbəti döyüş tapşırığı orada veriləcək. Heyət Qarğabazara irəliləyərkən, artilleriya atəşinə məruz qaldıq. Pikap avtomobilə əyləşərək birbaşa qarşıdakı təpəyə sürdüm və erməni artilleriyasının yerləşdiyi nöqtəni müəyyən etdim. Ərazinin koordinatını dəqiqləşdirərək, məlumatı artilleriya qüvvələrimizə verdim. Dərhal artilleriyamız ermənilərin atəş nöqtələrini məhv etdilər".

Tehran Mənsimov bildirib ki, yüksəklikdən geri qayıdanda isə ermənilər onun hərəkətdə olan avtomobilini atəşə tutublar:

"Bir qədər getdikdən sonra maşın piyada əleyhinə minaya düşdü. Güclü partlayış oldu, maşın aşdı, mən isə yaralandım. Amma hərəkət edə bilirdim", - deyə Tehran Mənsimov əlavə edib.

# ASC tərəfindən meliorativ tədbirlər aparılır

***Sumqayıt melioservis idarəsi tərəfindən meliorativ tədbirlər aparılır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Meliorasiya və Su Təsərrüfatı ASC-nin tabeliyində olan Sumqayıt Melioservis İdarəsi ölkənin bir çox rayonlarında meliorativ tədbirlərini davam etdirir.***

İdarənin gördüyü işlərdən biri də İmişli rayonu ərazisindən keçən Rəsul Arx kanalında həyata keçirilir. Kanal başlanğıcını Yuxarı Qarabağ kanalından götürür. İmişli və Saatlı rayonları ərazisində 19 min hektardan artıq əkin sahəsinin suvarılmasına xidmət edən kanalın uzunluğu 51 km-dən artıqdır. Kanalın lil və kol-kosdan təmizlənməsilə suyun sürətli və maneəsiz axını təmin edilir. Bundan başqa idarə tərəfindən Rəsul Arx kanalı ilə bərabər Baş Muğan kanalı və Köhnə Cənubi Muğan kanallarında da bu işləri paralel olaraq aparılır.

Qeyd edək ki, Sumqayıt Melioservis İdarəsi respublikanın 10 rayonunda-Qazax, Şəmkir, Tovuz, Salyan, Neftçala, İmişli, Qusar, Xızı, Goranboy və Kürdəmir rayonlarında kanalların lildən təmizlənməsi və təmir işlərini həyata keçirir.

Göygöldə 15 min hektardan artıq sahə suvarılır. Dilqəm Şərifov bildirib ki, Göygöl Suvarma Sistemləri İdarəsi ilin əvvəlindən etibarən suvarmanı tələb olunan səviyyədə həyata keçirmək üçün nəzərdə tutulan tədbirlər planına uyğun olaraq bütün işləri yerinə yetirib. 2022-ci ilin 9 ayı ərzində Göygöl rayonu ərazisində 15210 ha suvarılan sahələrdə kənd təsərrüfatı bitkilərinin suvarılması təmin edilib. İdarənin balansında olan subartezian quyuları və nasos stansiyaları vasitəsilə də əkin sahələrinin suvarılması yerinə yetirilib. Hazırda kanal və arxların lildən təmizlənməsi prosesi də sürətlə aparılır. Bu vaxta qədər 466 min kub metr lildən təmizləmə işləri həyata keçirilib. İdarənin balansında olan 35 ədəd hidrotexniki qurğu, 21 ədəd hidropost cari təmir edilib. Bundan başqa Qoşqar çayın sahilində yerləşən Bəhrambəy su tutarında lildən təmizləmə işləri davam etdirilir. Ümumi həcmi 100300 kub metr olan Göl uzun müddət istifadə olunduğundan lillə örtülüb. Hazırda lilin kütləsi 6 min kub metrə yaxındır. İdarənin texnikaları vasitəsi lil kütləsi göldən çıxarılır və hamarlanma işləri aparılır. Görülən işlərin yaxın günlərdə tamamlanacağı planlaşdırılıb.



Azərbaycan Respublikası Prezidenti sərəncamına uyğun olaraq Balçılı kəndində 1 ədəd, Quşqara kəndində 2 ədəd, Səmədli qəsəbəsində 1 ədəd, Nadil kəndində 1 ədəd olmaqla 5 ədəd yeni subartezian quyularının qazılması başa çatdırılıb. Rayon ərazisində suvarma ilə yanaşı sel sularından mühafizə tədbirlərinin həyata keçirilməsi sahəsində də müvafiq işlər görülüb. Sel və daşqınların qarşısını almaq üçün Gəncə çay, Kürək çay və Qoşqar çaylarında çay məcraları mexanizmlə təmizlənib. Ümumilikdə 122 min m3 həcmində çay məcrasının təmizlənməsi işləri həyata keçirilib.

Qeyd edək ki, Göygöl Suvarma Sistemləri İdarəsi 9 ay ərzində 174 ədəd subartezian quyusunu cari təmir edərək fermerlərin və fiziki şəxslərin istifadəsinə verib. Bundan başqa Xanlar arxında və Ərəbli arxında cari təmir işləri aparılaraq həmin arxlar vasitəsilə əkin sahələrinin tam suvarılması həyata keçirilib.

***Hüseyn İsgəndərov***

# "Milli Qəhrəman" adı kağız üzərində qalan şəhidimiz

***Birinci Qarabağ Müharibəsində nizamlı ordu olmadığı üçün polis əməkdaşları hərbi əməliyyatlara cəlb olunmuşdular. Onlardan biri də Qubadlı rayon Əyin kənd sakini Əhmədov Mahir Humay oğludur.***

Mahir Əhmədov 1970-ci ilin aprel ayının 28-də Qubadlı rayonunun Ermənistanla sərhəddə yerləşən Əyin kəndində anadan olub. 1987-ci ildə orta məktəbi bitirib. 1988-1990-cı illərdə sovet ordusu sıralarında xidmət edib. 1990-cı ilin may ayında Daxili İşlər Nazirliyində xidmətə qəbul olub. Qubadlı Rayon Polis Şöbəsində xidmət edən Mahir Əhmədova xidməti silah təhkim olunub. O, həmin silahla döyüş yolu keçib. Hər dəfə döyüşə gedəndə Mahir Əhmədovun ondan nigaran qalan ailə üzvlərinə dediyi bir söz var idi: "Öncə Vətən!". Əhmədovlar ailəsi onun bu sözləri deyib döyüşə getməsini hələ də çox yaxşı xatırlayır.

Mahir Qubadlı rayonunun sərhəd kəndlərinin düşmən hücumundan qorunması istiqamətində həyata keçirilən hərbi əməliyyatlarda aktiv iştirak edib. Döyüşlərdə böyük şücaət göstərib. 1992-ci ilin oktyabr ayının 20-si isə hər zaman Əhmədovlar ailəsinin yaddaşında faciəli gün kimi yadda qalıb. Həmin



gün Qubadlının Başarat kəndi yaxınlığında döyüş əməliyyatlarında iştirak edən polis serjantı Mahir Əhmədov qəlpə yarası alaraq qəhrəmancasına şəhid olub. Qəlpə onun ürəyinə tuş gəlmişdi. Şəhidimiz doğulduğu kənddə torpağa tapşırılıb.

22 yaşında şəhid olan oğlunun yoxluğuna dözə bilməyən anası isə 1993-cü il mart ayının 18-də vəfat edib. O da oğlunun yanında dəfn edilib. Mahirin iki bacısı, bir qardaşı var. Atası Humay Əhmədov isə Qubadlı rayon Əyin kənd məktəbinin direktoru işləyib. O, 2014-cü ildə Sumqayıt şəhərində vəfat edib.

Artıq Mahir Əhmədovun şəhid olmasından 30 il ötür. O, şəhadətindən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub. Əhmədovlar ailəsi Mahirin qəhrəmanlığı, onun döyüşlərdə göstərdiyi şücaətlə fəxr edirlər.

"Unikal"ın əməkdaşları şəhidimizin 30-cu ildönümündə onun ailə üzvləri və döyüş yoldaşı ilə həmsöhbət oldular. Söhbət əsnasında məlum olub ki, həmin dövrün daxili işlər naziri Abdulla Allahverdiyevin adından şəhidimizin atasına oğlu Mahir Əhmədova "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilməsi ilə bağlı teleqram göndərilibmiş. Şəhidin ailə üzvlərinin sözlərinə görə, həmin teleqramdan sonra ölkədə hakimiyyət dəyişikliyi olduğu üçün Mahir Əhmədova "Milli Qəhrəman" fəxri adı verilməsi rəsmən təsdiqlənməyib. Hazırda Mahirin ailə üzvlərinin və yaxınlarının yeganə arzusu şəhidimizə rəsmən "Milli Qəhrəman" adının verilməsidir.

***Murad İbrahimli***



# 18 yaşlı şəhidin Vətən məhəbbəti

***Elnur Qədir oğlu Əbdülovun adı indi bütün astaralıların tərəfindən böyük hörmətlə, qürurla çəkilir. Rayonun Şümrüd kəndində dünyaya gələn, 4 bacının yeganə qardaşı, ailənin əziz xələfi Elnur İkinci Qarabağ müharibəsinin şəhididir.***

Elə bu müqəddəs yolu ona sevdirən Vətənə məhəbbəti olubdur. Vətən sevdalısı sinəsini yanar od edib gözlərini qırpmadan düşmənlə ölüm-dirim savaşına atılanda ömrünün 18-ci ilini yola salırdı. Azərbaycanın müqəddəsliyi naminə öz cavan canında keçməyi bacarır Elnur.

Elnur orta məktəbi bitirib müstəqil həyata qədəm qoyanda yeganə amalı, məqsədi düşmən tapdağına dönən Vətən torpaqlarını azad görmək olur. Məhz buna görə də 2020-ci ilin aprel ayında həqiqi xidmətə yola düşəndə:" Vətən torpaqları yağı düşməndən azad edilməmiş silahı əlimdən yerə qoymaram"-deyir. Özü arzuladığı kimi ön xətdə yerləşən bölmələrin birinə düşür. Yağı düşmənlə qarşı-qarşıya duran igid əsgər Vətən keşiyində ayıq-sayıq dayanır. Həm də verilən tapşırıqları layiqincə yerinə yetirir, təlimlərə ürəklə qoşulur, hərbi texnikanın sirlərinə mükəmməl yiyələnir, zabit və əsgərlər qarşısında həmişə özünü doğrultdur. Günlər keçdikcə Elnurun ürəyində erməni dığalarına nifrəti daha da artır. Ən əsası hər an düşmənə qarş döyüşməyə hazır olur.

İgid əsgərin xidməti vaxt Vətən müharibəsi başlanır. Minlərlə döyüş meydanına atılan qeyrətli oğullardan biri də Elnur olur. Birinci gündən torpaq uğrunda can qoyur, mərdliklə vuruşub neçə-neçə erməni əsgərinin, texnikasının axırına çıxır. Əsl qəhrəmanlıq salnaməsi yaza-yaz irəliyə gedir. Çiyin-çiyinə vuruşduğu zabit və əsgər yoldaşları ilə azad etdiyi doğma Vətən torpaqlarında Azərbaycanın üçrəngli qələbə bayrağını görəndə Elnur daha da ürəklənir. Murovdağ istiqamətində gedən ağır müharibədə xüsusi bir qəhrəmanlıq göstərir. Təəssüf ki, bu Elnurun son savaşı olur. Düşmən gülləsinə vaxtsız tuş gəlsə də, cəsur, igid, Vətənə bağlı övlad kimi əbədi milyonların könlünə köç edir. Dövlət də öz növbəsində qəhrəman oğlu Elnur Əbdülovu ölümündən sonra üçüncü dərəcəli "Rəşadət" ordeninə, "Vətən uğrunda", "Cəsur döyüşçü" və digər medallara layiq görür.

Bəli, Azərbaycan xalqı mübariz, doğma torpağına, Vətəninə bağlı olduğunu öz qanları ilə şanlı tarix yazıb şəhidlik zirvəsinə ucalan Elnur kimi igid övladların şücaəti sayəsində bir daha dünyaya göstərir.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Qazaxıstanlı diplomatlar Kiyevdən təxliyə edildi



***Qazaxıstan diplomatlarının əksəriyyəti Varşavaya köçürülüb.***

"Unikal" Zakon.kz-ə istinadən xəbər verir ki, bu barədə Qazaxıstanın baş nazirinin müavini - xarici işlər naziri Muxtar Tleuberdi bildirib.

Xarici siyasət idarəsinin rəhbəri qeyd edib ki, tam təxliyədən söhbət gedə bilməz.

"Biz diplomatik əməkdaşlarımızın həyatını və təhlükəsizliyini riskə ata bilmərik. Ona görə də indi işçilərin yerdəyişməsi məsələsi ortaya çıxır. Hazırda diplomatların əksəriyyəti Varşavaya köçürülüb və fəaliyyətlərini oradan həyata keçirirlər", - deyə Tleuberdi bildirib.

Nazir vurğulayıb ki, Kiyevdə hər gün qazaxıstanlıları qəbul edən və evakuasiyaya köməklik göstərən konsul var.

"Ona görə də səfirliyin tam təxliyəsi və müvəqqəti bağlanması barədə danışmağa əsas yoxdur", - o əlavə edib.

# İsveçrə prezidenti Kiyevə səfər etdi



***İsveçrə prezidenti İqnatius Kassis Ukraynaya səfərə gəlib.***

"Unikal" xəbər verir ki, bu barədə o, "Twitter"də yazıb.

"Yenə Ukraynada - sonuncu səfərimdən bir il sonra. Məqsədim müharibə ilə bağlı vəziyyət və ölkənin yenidən qurulması üçün hazırlıq işləri haqqında təəssürat yaratmaqdır", - Kassis bildirib.

Bildirək ki, İsveçrə Rusiyanın Ukrayna ərazisinin bir hissəsini qanunsuz ilhaq etmək cəhdi ilə əlaqədar Rusiya Federasiyasından 30-dan çox fiziki və hüquqi şəxsin sanksiya siyahısına daxil edilməsini təsdiqləyib.

***Gülayə Mecid***

# Ermənistan İrandan PUA almaq istəyir



***Ermənistan İrandan pilotsuz uçuş aparatları (PUA) almaq istəyir.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə İslam İnqilabı Keşikçiləri Korpusunun keçmiş komandanı və İranın Ali Rəhbərinin hərbi məsələlər üzrə köməkçisi general-mayor Yəhya Rəhim Səfəvi jurnalistlərə açıqlamasında bildirib.

"İran pilotsuz təyyarələrini almağa hazırkı namizəd ölkələr Ermənistan, Tacikistan, Serbiya, Əlcəzair, Venesuela və digər ölkələrdir", - Səfəvi deyib.

***Seymur Əli***

# Çin vətəndaşlarını təcili Ukraynadan çıxmağa çağırdı

***Çin vətəndaşlarının mümkün qədər tez Ukraynanı tərk etmələrini tələb edir.***

"Unikal" "Global Times"a istinadən xəbər verir ki, bu barədə Çinin xarici işlər nazirinin müavini Ma Zhaoxu Çin Kommunist Partiyasının XX qurultayında keçirdiyi mətbuat konfransında bildirib.

"Ukraynadakı mövcud təhlükəsizlik vəziyyətini nəzərə alaraq, Çinin bu ölkədəki diplomatik nümayəndəlikləri hazırda Çin vətəndaşlarının təxliyəsinə hazırlaşır.

Onun sözlərinə görə, Ukraynadakı Çin vətəndaşları öz təhlükəsizliklərini təmin etmək üçün tez bir zamanda müvafiq tədbirlər görməlidirlər və təxliyə üçün bu ölkədəki Çin diplomatik nümayəndəlikləri ilə əlaqə saxlamalıdırlar.

***Ağarza Elçinoğlu***

# Bu baş versə, ABŞ Ukraynaya yardımı dayandıra bilər

***ABŞ Konqresinin Nümayəndələr Palatasına seçkilərdə Respublikaçılar Partiyasının nümayəndələrinin mümkün qələbəsi Ukraynanı maliyyələşdirən "kranı" bağlaya bilər.***

"Unikal" xəbər verir ki, bu barədə Axios nəşri məlumat yayıb.

Şimali Dakota ştatının nümayəndəsi Kelli Armstronqun sözlərinə görə, insanların ərzaq qiymətlərinin 13 faiz artdığını, amerikalıların sərhəd bölgəsində



yaşadığı, miqrantlar və onların ətrafında olan fentanil, enerji və kommunal xidmətlərin qiymətlərinin iki dəfə artdığını gördükləri bir şəraitdə Ukraynadakı vəziyyət onların düşündükləri son şeydir.

O, əlavə edib ki, Vaşinqtonun Kiyevin maliyyələşdirilməsinə münasibətinin dəyişməsi amerikalı seçicilərin rəyinin dəyişməsi hesabına baş verəcək.

Texas nümayəndəsi Maykl Makkal hesab edir ki, respublikaçılar Ukraynanın maliyyələşdirilməsində daha çox hesabatlılıq və nəzarət görmək istəyirlər.

***Ağarza Elçinoğlu***

# Əlcəzair və Rusiya birgə hərbi təlim keçirir

***Əlcəzairin Müdafiə Nazirliyi Aralıq dənizində Rusiya ilə 4 günlük birgə hərbi təlimin başladığını açıqlayıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, nazirlikdən verilən yazılı açıqlamada, "Rusiya donanmasına aid bir qrup döyüş gəmisi 2022-ci il ortaq dəniz təlimini keçirmək üçün Əlcəzair limanına yanaşdı", - qeyd olunub.

Təlimin Əlcəzair Milli Xalq Ordusu Hərbi Dəniz Qüvvələri ilə Rusiya Hərbi Dəniz Qüvvələri arasında ikitərəfli hərbi əməkdaşlıq əlaqələrinin gücləndirilməsi çərçivəsində həyata keçirildiyi vurğulanaraq, birgə hərbi dəniz təliminin 4 gün davam edəcəyi bildirilib.

Bəyanatda təlimlə bağlı əlavə təfərrüatlar verilməyib.

***Gülayə Mecid***



# "Putin dünyanı parçalamağa çalışır" - Olaf Şolts

***Putin Ukraynada və Avropada öz məqsədlərinə nail ola bilməyəcək, Qərb Ukraynaya dəstək, o cümlədən hərbi dəstək verəcək.***

"Unikal" xəbər verir ki, bunu Almaniya kansleri Olaf Şolts deyib.

Onun sözlərinə görə, Putinin Ukraynadakı vəhşiliyi, enerjidən və aclıqdan silah kimi istifadə etməsi, inflyasiyanın inanılmaz sıçrayışı - bütün bunlar Avropa və



dünya üçün on il ərzində görünməyən sınaq olub.

"Putin Ukraynada terrora əl atır, məsuliyyətsiz nüvə ritorikasından istifadə edir. Qərbin zəif tərəfləri üzərində oynamağa, dünyanı parçalamağa çalışır. O səhv edir, parçalanmağımıza imkan verməyəcəyik... Ölkəmiz bir yerdədir, Avropa bir yerdədir, bir-biri ilə və Ukrayna ilə həmrəydir, bütün dünyada ittifaqlarımız güclüdür. Putin öz məqsədlərinə çatmayacaq", - Şolts vurğulayıb.

***Gülayə Mecid***

# Roqov Zelenskini hərbi cinayətkar adlandırdı

***Ukrayna Silahlı Qüvvələri noyabrın sonuna qədər nəyin bahasına olursa-olsun Xersonu və Zaporojye AES-i nəzarətə götürmək tapşırılıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu "Biz Rusiya iləyik" hərəkatının sədri, Zaporojye vilayəti administrasiyasının baş şurasının üzvü Vladimir Roqov deyib.

Roqovun sözlərinə görə, Zelenskiyə beynəlxalq ictimaiyyətin diqqətini öz şəxsiyyətinə cəlb etmək üçün "PR kampaniyası kimi" ZAES lazımdır.

Rəsmi vurğulayıb ki, Rusiya öz ərazilərini qorumağa və müdafiə etməyə qadirdir. Roqov Zelenskini "şəxsi varlanmaq və Qərb ağalarını razı salmaq istəyi naminə" vətəndaşları müəyyən ölümə atan hərbi cinayətkar adlandırıb.

***Gülayə***



# Rusiya Ukraynada 428 uşağı qətlə yetirib

***Rusiya ordusu Ukraynada 428 uşağı öldürüb, 817 nəfəri yaralayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Baş Prokurorluğunun mətbuat xidməti məlumat yayıb. "20 oktyabr 2022-ci il səhər saatlarına olan məlumata görə, Rusiya Federasiyasının genişmiqyaslı silahlı təcavüzü nəticəsində Ukraynada 1245-dən çox uşaq xəsarət alıb. 428 uşaq ölüb, 817-dən çox uşaq isə müxtəlif dərəcəli bədən xəsarətləri alıblar", - məlumatda deyilir.

# İdmançımız Avropa birinciliyində iki gümüş medal qazandı

***15-25 oktyabr tarixlərində Albaniyanın Dürres şəhərində keçirilən yaşı 20 və 23-ə qədər olan gənclər arasında ağır atletika üzrə Avropa birinciliyi davam edir.***

"Unikal" xəbər verir ki, yarışda 37 ölkədən 416 atlet (194 qadın və 222 kişi) iştirak edəcək.

Medallar uğrunda mübarizəyə Azərbaycan yığma komandasının üzvləri də qoşulacaqlar. Onlardan ikisi - "Zirvə" İdman Klubunun təmsilçisi Ömər Cavadov və "Təhsil" İOEUGİŞ Məktəbinin təmsilçisi Murad Əliyev yaşı 20-yə qədər olan idmançılar arasında 67 kq çəki dərəcəsində yarışırlar.




Murad Əliyev birdən qaldırma hərəkətində 133 kq-ı ram edərək bu hərəkətdə 5-ci yeri tutub.O, təkanla qaldırma hərəkətində 156 kq-ı başı üzərinə qaldırıb və bu hərəkətdə 7-ci pillədə qərarlaşıb. Toplam 289 kq (133+156) nəticə göstərən atletimiz yekun sıralamada 6-cı yeri tutub.

Ömər Cavadov isə birdən qaldırma hərəkətində 140 kq-ı ram edərək bu hərəkətdə gümüş medal qazanıb. O, təkanla qaldırma hərəkətində 165 kq-ı başı üzərinə qaldırıb və bu hərəkətdə 4-cü pillədə qərarlaşıb. Toplam 305 kq (140+165) nəticə göstərən atletimiz yekun sıralamada 2-ci yeri tutaraq gümüş medal qazanıb.

# Joan Laportaya 602 avroluq cərimə

***"Barselona"nıb prezidenti Joan Laporta cərimələnib.***



Qol.az İspaniya mətbuatınaistinadən xəbər verir ki, buna səbəb onun La Liqanın 9-cu turunda "Real"la matçdan (1:3) sonra görüşün baş hakimi Sançes Martinezə yaxınlaşaraq ona etiraz etməsi olub. Laporta final fitinin ardından Martinezin yanına gedib. Hakim matç sonrası hesabatında Laportanın ona peşəsi ilə vidalaşamalı olduğunu dediyini yazıb. Həmçinin Laporta hakimin verdiyi qərarları, xüsusən də Rodriqonun penaltisini dəfələrlə müzakirə edib.

Maraqlıdır ki, İntizam Komitəsi Laportanın bu hərəkətlərinə görə onu cəmi 602 avro məbləğində cərimələyib.

# "Araz Naxçıvan"ın ÇL üçün ilkin heyəti

***Çempionlar Liqasının əsas mərhələsində iştirak edəcək "Araz-Naxçıvan" ilkin heyəti UEFA-ya göndərib.***

"Unikal" Azərbaycan Futzal Federasiyasının saytına istinadən xəbər verir ki, 19 nəfərlik heyətdə 3 qapıçı yer alır. Cəzalı olduğuna görə bu mərhələdə iştirak etməyəcək Felipinyonun adı da iştirak ərizəsinə daxil edilib. Komanda elit-raunda yüksələcəyi təqdirdə futzalçı komandasına sonuncu görüşdə kömək edə biləcək.

Həmçinin oxuyun: "Araz Naxçıvan"ın ÇL oyunlarının başlama saatı açıqlandı

Qapıçılar: 12. Mikael Deon, 1. Emin Kürdov, 19. Cavad Məmmədov

Oyunçular: 2. Kənan Manafov, 3. Nurlan Mehdizadə, 5. Pedro Torres, 6. Ponçe, 7. Ramiz Çovdarov, 8. David Qustavo, 9. Oktay Rüstəmli, 10. Andreu Varqas, 13. Viktor Hüqo "Vitao", 14. Xəzər Ağalızadə, 15. Viktor Pires "Vitinyo", 16. Murad Quluzadə, 18. Fərid Ələkbərov, 20. Snesio, 21. Lukas Matheus "Katatau", 22. Felipinyo





# Güləşçimiz dünya çempionu oldu

***Azərbaycanın yunan-Roma güləşçisi Qurban Qurbanov İspaniyanın Pontevedra şəhərində keçirilən U-23 dünya çempionatında qızıl medal qazanıb.***

"Unikal" xəbər verir ki, 72 kq-da çıxış edən idmançı finalda xorvatiyalı Pavel Puklavetsə hesabı 8:2 ilə qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Bununla da yunan-Roma güləşi üzrə Azərbaycan yığması mundiali 3 medalla başa vurub. Daha əvvəl Nihad Quluzadə (55 kq) və Nihad Məmmədli (60 kq) ikinci yeri tutub.



# Oyun bitməmiş getdi - Ronaldodan Ten Haqa növbəti etiraz

***"Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldo İngiltərə Premyer Liqasının 12-ci turunda "Tottenhem"lə oyun (2:0) bitməmiş paltardəyişmə otağına gedib.***

Qol.az xəbər verir ki, görüşə ehtiyat oyunçular skamyasında başlayan və 90-cı dəqiqəyə kimi meydana buraxılmayan portuqaliyalı hücumçu final fitini gözləmədən bu addımı atıb. 37 yaşlı futbolçu ona şans verilmədiyi üçün baş məşqçi Erik Ten Haqa etirazını bu şəkildə bildirib.

Qeyd edək ki, Ronaldo bundan əvvəl oktyabrın 2-i keçirilən "Mançester Siti" ilə matçda da (3:6) ehtiyat oyunçular skamyasında qalmışdı. Həmin vaxt Ten Haq Ronaldonun karyerasına hörmət etdiyi üçün onu hesabda geridə olduqları oyunda meydana buraxmadığını söyləmişdi.

Xatırladaq ki, Ronaldo daha əvvəl İngiltərə Premyer Liqasının 11-ci turunun "Nyukasl"la qarşılaşmada (0:0) 72-ci dəqiqədə əvəzlənməsindən açıq şəkildə narazı olub. O, texniki zonada əyləşdikdən sonra məyus halda başını bulayıb.

# "Mançester Yunayted" "Tottenhem"ə qalib gəldi

***İngiltərə Premyer Liqasında 12-ci turun oyunları davam edir. Beş qarşılama keçirilib.***



Səfərdə "Brentford"la qarşılaşan "Çelsi" xal itirib. "Liverpul" "Vest Hem"i, "Nyukasl" da "Everton"u minimal hesabla üstələyib. "Sauthempton" isə "Bornmut"u səfərdə məğlub edib - 1:0.

Turun mərkəzi matçında "Mançester Yunayted" "Tottenhem"i qəbul edib və qalib gəlib - 2:0

Qeyd edək ki, bu turun "Arsenal" - "Mançester Siti" oyunu isə təxirə salınıb.

**19 oktyabr**

"Bornmut" - "Sauthempton" - 0:1
Qol: Adams, 9.
"Brentford" - "Çelsi" - 0:0
"Liverpul" - "Vest Hem" - 1:0
Qol: D.Nunes, 22.
"Nyukasl" - "Everton" - 1:0
Qol: Almiron, 31.
"Mançester Yunayted" - "Tottenhem" - 2:0
Qol: Fred, 47. B.Fernandes, 69.

Turnir cədvəlinə 27 xalla "Arsenal" başçılıq edir. "Mançester Siti" və "Tottenhem" 23 xalla 2-ci və 3-cü yerləri bölüşürlər. "Çelsi" 20 xalla 4-cü, "Mançester Yunayted" 19 xalla 5-cidir.